RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 277 (8300) CÜMƏ, 13 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Ulu Öndərə dərin ehtiram

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 16 il keçir. Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu Öndər Heydər Əliyevin də ömür yolu, əslində, Azərbaycanın bir qərinəlik tarixidir. O tarix ki, uzun illər boyu Azərbaycan mühitinin, Azərbaycan həyatının ayrılmaz parçası olub. Onun yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilib. Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqilliyimizin rəmzidir.

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət himni səsləndi.

Dövlət başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli Lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər iştirak ediblər.











## Birinci vitse-prezident Mehriban ƏLİYEVA: "Ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsini ehtiramla yad edirəm"



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar "Instagram" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin paylaşımında deyilir: "Bu gün - 12 dekabr Azərbaycanın və Azərbaycan xalqının həyatında və taleyində silinməz iz qoymuş dahi şəxsiyyət Heydər Əliyevin anım günüdür. Ümummilli Lider Heydər Əliyevin unudulmaz xatirəsini ehtiramla yad edirəm. Ölkəmizə sülh və tərəqqi arzulayıram".

◆Müəllifi İlham Əliyevdir

## Rəqəmsal dünyaya ASAN keçid

**Prezident İlham Əliyevin yaratdığı "Elektron Hökumətin İnkişafı Mərkəzi" innovativ texnologiyalardan istifadə etməklə ölkənin bütün vətəndaşlarına elektron xidmətlərin göstərilməsini təmin edir**

*Müasir texnologiyalar, innovativ yeniliklər, virtual məkan və süni intellekt...*

XXI əsrin başlanğıcı təkcə il baxımdan yeni eranın başlanğıcı deyil, həm də yeni elektron idarəetmə sisteminə keçid dövrü kimi səciyyələnir. Elə bir dövrdəyik ki, dünən müasir hesab edilən metodlar bu gün artıq aktual olmur və daha yeniləri ilə əvəzlənməsinə ehtiyac duyulur. Yəni, sürətlə inkişaf etməkdə olan elm və texnologiya əsrində innovativ yeniliklər hər kəsi heyrətləndirir.

Zamanın çağırışları ilə ayaqlaşan Azərbaycan dövləti də yeni sistemə keçidlə vətəndaş-hökumət münasibətlərində çeviklik, şəffaflıq prinsipinə əsaslanan "Rəqəmsal hökumət" (Digital Government) sisteminin tətbiqinə başlayıb. Müasir yeniliklərin tətbiqi artıq uğurlu nəticələr verməkdədir və hətta qısa zaman kəsiyində elektronlaşma sahəsində Azərbaycanın həyata keçirdiyi layihələr bir çox ölkələr üçün nümunəyə çevrilib.

### Çevik fəaliyyət, informasiya ehtiyatlarının formalaşdırılması

Əgər bir neçə il öncə hər hansı bir sənədi əldə etmək, hər hansı xidmətdən yararlanmaq üçün bir neçə yerə müraciət etmək, xeyli sayda sənədləşmə işi ilə məşğul olmaq, günlərlə, bəzən də aylarla gözləmək lazım gəlirdisə, "Elektron Hökumət"in yaradılması ilə bu problemə, demək olar ki, son qoyulub.

Ardı 6-cı səh.



## Gəncliyə və gələcəyə ünvanlanmış dəyərlər

*Cəmiyyəti inkişafa aparan yeni ideyalar və onları reallığa çevirmək üçün tükənməz güc, enerji, adətən gənclərdən gəlir.*

Müasir dövrdə isə cəmiyyətin gələcək inkişafı baxımından gəncliyin rolu daha da artıb. Çünki biz indi biliklərin, innovasiyaların, yeni texnologiyaların getdikcə daha çox hakim olduğu dünyada yaşayırıq. Bu yenilikləri asanlıqla mənimsəyib cəmiyyət həyatına gətirənlərsə, texnologiyalar dövründə doğulub böyüyən, bu mühitə aid olan gənclərdir.

Gəncliyin özünün də hər zaman diqqətə və qayğıya, onların inkişafına göstərilən dəstəyə ehtiyacı var.

Tarixdə nəcib izlər qoymuş istənilən liderin ömürlüyünü nəzərdən keçirsək, gəncliyə xitabın onun irsində parlaq xətt kimi nəzərə çarpdığını görərik.

Ardı 5-ci səh.

## Azərbaycanda möhtəşəm inkişaf bütün sahələri əhatə edir

*Həyata keçirilən məqsədyönlü sosial-iqtisadi siyasət, siyasi sabitlik, investisiya imkanlarının geniş olması Azərbaycanı dünyanın sayılıb-seçilən ölkələri sırasına çıxarıb. Üstəlik, zəngin enerji ehtiyatları, əlverişli coğrafi mövqe ölkəmizə beynəlxalq əhəmiyyətli layihələr həyata keçirməyə imkan verib.*

1994-cü ildə bir sıra dünya səviyyəli şirkətlərlə imzalanmış möhtəşəm neft sazişi - "Əsrin müqaviləsi" ilə Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bir çox beynəlxalq, regional təşkilatlarla, dünya ölkələri ilə uzunmüddətli dostluq və əməkdaşlıq üçün möhkəm təməl yarandı.

Ərazisinin 20 faizinin işğal olunması, regiondakı kataklizmlər Azərbaycanın davamlı inkişafına mane ola bilmədi. 1990-cı illərin ortalarında əldə edilmiş siyasi sabitlikdən sonra ölkə davamlı iqtisadi islahatlara və iqtisadiyyatın şaxələndirilməsinə önəm verərək neft-qaz və qeyri-neft-qaz sektorlarının inkişafına nail oldu.

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının inam və uğurla həyata keçirilməsi ölkənin qəddini düzəltdi. Qısa müddətdə nəhəng layihələr gerçəkləşdi, tamamilə yeni neft-qaz infrastrukturu quruldu.

"Əsrin müqaviləsi" imzalanandan cəmi üç il sonra layihə çərçivəsində ilkin neft əldə olundu. Çox keçmədən Ulu Öndərin və dünyanın müxtəlif yerlərindən gəlmiş mötəbər qonaqların iştirakı ilə üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin təməli qoyuldu.

Ardı 6-cı səh.



# Əbədiyaşarlıq və tükənməz xalq məhəbbəti

## Ulu Öndər Heydər Əliyevin Fəxri xiyabandakı ziyarətgahı bu il də bunun şahidinə çevrildi

...Talelərə yazılan sərt sınaqlardan əzmlə çıxaraq xalqın sevimlisinə çevrilmək asan deyil, bunu təkrarlanan tarix dəfələrlə təsdiqləyib. Bu, şərəf, həm də çoxlarına nəsib olmayan xoşbəxtlikdir. İctimai-siyasi fəaliyyəti və bütövlükdə mənalı həyatı örnəyə çevrilən Ulu Öndər Heydər Əliyevin də məhz belə şəxsiyyət kimi tanınmasını, dühası qarşısında baş endirilməsini şərtləndirən səbəb və amillər kifayət qədərdir. Xalqının tarixində və taleyində günəş kimi parlayan Ümummilli Lider Heydər Əliyevin həyat yolu, ömrü, fəaliyyəti barədə nə qədər söz açılsa, kitablar yazılsa da, onun hər dəfə yeni bir müsbət keyfiyyəti, vətənə sevgisi üzə çıxır.

...2003-cü ilin soyuq dekabr günlərində paytaxt Bakı sükut, qüssə və kədərə bürünmüşdü. O zaman hüznlü baxışlardan, kədər və qəhərdən yağan göz yaşları yanaqları yandırırdı. Dünən, dekabrın 12-də isə Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edənlərin çöhrəsində özgə bir qürur da vardı. Bunun səbəbləri az deyildi. Ən əsası isə odur ki, Ulu Öndərin memarı olduğu müasir Azərbaycan nəinki Cənubi Qafqazda, hətta, inkişafına görə dünyanın aparıcı dövlətlərinin arasında ön sırada olduğunu təsdiqləyir.

Ziyarətə gələnlərin arasında bu dəfə gənclərin daha çoxluq təşkil etməsi də səbəbsiz deyildi. İlin bütün fəsillərində təravətli gül-çiçəyə bələnmiş Ulu Öndərin müqəddəs ziyarətgahı yerləşən Fəxri xiyaban yenə də insan axınına, xüsusən də gəncliyə darlıq edirdi.

Ümumxalq məhəbbətin şahidinə çevrilənlərin arasında əcnəbilər də az deyildi. İstər ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, istərsə də xaricdən Azərbaycanın füsunkar təbiətinin gözəlliyini görməyə gələnlər də ziyarətçilərin arasında idilər. Yaşından və vəzifəsindən asılı olmayaraq, ölkənin yüz minlərlə vətəndaşı (nəinki paytaxt sakinləri, respublikamızın ayrı-ayrı bölgələrindən ziyarətə gələnlərin ardı-arası kəsilmirdi) Ulu Öndərə sonsuz məhəbbətini ifadə etmək üçün Fəxri xiyabana üz tutmuşdu...

"Heydər Əliyev nadir, unikal, seçilən, dünya siyasətinə təsir etmək gücündə olan lider idi". Bu fikirləri bildirən "İnternat Məzunlarının Sosial İnteqrasiyası" Gənclər İctimai Birliyinin sədri Araz Əhmədov yoldaşları Seymur və Mahirə Kazımlılar, Qubad Tarverdiyev, Aqil Fərəcov və digər gənclərin fikirlərini ümumiləşdirib onu da qeyd etdi ki, Ulu Öndər Heydər Əliyev tək bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü demiş nadir siyasətçilərdən idi: "Ölkənin ən ağır günlərində bütün çətinliklərə, daxili və xarici çəkişmələrə baxmayaraq, Ulu Öndər müstəqil dövlətimizi xilas etdi, qurdu və gücləndirdi. Ümummilli Lider bəlkə də hər kəsdən daha çox internatda yaşayan uşaqların hamisi kimi sevildi. Dəqiq yadımdadır: hər bayram gününü, demək olar ki, o, bizimlə keçirərdi. Bizi internatdan götürüb Əl Oyunları Sarayına aparardılar. Hər dəfə sağında və solunda uşaq evində böyüyən uşaqları oturdardı. Böyük şəxsiyyət valideynini itirmiş və onların himayəsindən məhrum olmuş uşaqlara xüsusi diqqət ayırardı. Buna nümunə kimi 1999-cu ildə bizim kimi uşaqların sosial şəraitinin yaxşılaşdırılması və tam hüquqlu vətəndaş olaraq yetişməyimiz üçün qanunlar qəbul etməsini göstərmək olar. Bu gün həmin qanunlar Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyi ilə həyata keçirilir. Biz internat və uşaq evi məzunları da Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini dərin ehtiram və hörmətlə anırıq..."

"Şəhid Övladları və Kimsəsiz Uşaqlara Yardım" İctimai Birliyinin sədri Pərişan Musazadə "Ulu Öndərin həyat və fəaliyyətinə nəzər salanda fəxrlə danışır və qürur hissi keçiririk", - deyir. Əlavə edir ki, hələ gənclik illərindən fəal ictimaiyyətçi olan, öz həmyaşıdlarından fərqlənən Heydər Əliyev zamanın qalibi kimi tarixə imza atmaq yolu ilə irəliləyib: "Çoxlarının sona kimi gedə bilmədiyi bu çətin və şərəfli yol dövləti və xalqı xoş, işıqlı sabahlarına apardı. Bu yolla addımlayarkən Ulu Öndər mübarizliyinə, əyilməzliyinə, əzmkarlığına güvəndi! İstər birinci, istərsə də ikinci dəfə hakimiyyətdə olduğu dövrlərdə əsl xalq və millət, Vətən övladı və dövlət xadimi olduğunu işıqlı əməlləri, fədakar fəaliyyəti ilə təsdiq etdi. Ulu Öndərin yalnız özünəxas cəsarəti, möhkəm iradəsi, əsl liderə məxsus bacarığı Azərbaycanın bugünkü inkişafına səbəb olub..."

İxtisasca həkim Selcan Səlimbəylinin fikirləri qısa və konkretdir: "Ümummilli Liderin dövlətçiliyin möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, dünyaya səpələnmiş soydaşlarımızın birliyinin yaradılmasına çalışması heç də təsadüfi deyildi. Bunlardan ən vacibi isə dünyanın aparıcı dövlətlərinin strateji maraqlarını Azərbaycanın mənafeyi istiqamətində birləşdirməyə nail olması idi. Ulu Öndər bunu da öz iradəsi və siyasi təfəkkürü ilə bacardı. Bu gün Prezident İlham Əliyev həmin siyasəti çox uğurla davam etdirir. İnanırıq ki, bizi müvəqqəti işğal altında qalan doğma yurdlarımıza da məhz cənab Prezidentin məqsədyönlü siyasəti qaytaracaq. Onun torpaqlarımızın işğaldan azad edilməsi uğrunda apardığı mübarizə, əzmkarlıq nümunəsi bunu söyləməyə əsas verir".

Həmsöhbətimiz Rəna Mirzəyeva Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Ulu Öndərə əbədi ehtiramının sübutu olan "Son mənzil, son məkan" şeirindən bəzi misraları kövrək hisslərlə söyləyir və əlavə edir ki, azad, müstəqil ölkənin vətəndaşları olması məhz Ulu Öndərin davam etdirilən siyasəti ilə mümkünləşib. Xüsusən gənclər fəxr edir ki, xalqımızın belə bir dahi şəxsiyyəti var: "Dünya xalqları da Ümummilli Liderimizin şəxsiyyətinə dərin ehtiram göstərir. Burada gördüyümüz izdiham isə dahi öndərin bu gün də milyonların qəlbində yaşamasının sübutudur. Gələcək nəsillər tarixi şəxsiyyətimizin həyat və fəaliyyətini özlərinə daim örnək biləcəklər".

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin fəallarından olan Əsmər Nəbiyeva isə dedi ki, Azərbaycan xalqının xoş və firavan həyatına ömrünü həsr edən Ümummilli Lider Heydər Əliyevin bəşəri şəxsiyyət olması yeni tariximizin bütün səhifələrində özünü təsdiqləyir: "Dövlətimizin gənclər siyasəti bu gün çox uğurla və məqsədyönlü şəkildə həyata keçirilir. Azərbaycan gənci elmi və intellektual dünyagörüşü ilə həmyaşıdları arasında seçilir. Dünyanın ən aparıcı ali təhsil ocaqlarında elmin müasir nailiyyətlərini öyrənən gənclik gələcəyin kadrlarıdır. Bu potensiala diqqət yetirən dövlət başçımızla fəxr duyuruq. Həm də ona görə ki, o, öz ətrafında yüz minlərlə vətənpərvər gənci birləşdirən Yeni Azərbaycan Partiyasının lideridir. Biz gənclər Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla və məqsədyönlü şəkildə davam etdirən liderimiz - Azərbaycan Prezidenti ilə Vətənimizi daha da inkişaf etdirəcəyik. Bu uğurlar həm də erməni təcavüzünə məruz qalmış torpaqlarımızın azad olunmasında vacib faktorlardan biridir. Bunu düşmən tərəfin gəncliyi də artıq etiraf etmək məcburiyyətindədir. 2003-cü il dekabrın 12-də Azərbaycan xalqı ağır itki ilə üzləşdi. Ümummilli Lider Heydər Əliyev kimi tarixi şəxsiyyətini itirən xalqımızın həmin ərəfədə keçirdiyi kədər böyük idi. Lakin bu, uzun sürmədi. Ulu Öndər özü qədər inandığı siyasi varisini sevimli xalqına və müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin bu günü və sabahını etibarlı əllərə tapşırıb gedirdi. Məhz bu baxımdan nigarançılığa əsas yox idi.

Bir məsələni də xatırladım. Azərbaycan gəncliyini tutduğu yoldan heç bir siyasi ambisiyalı vəzifə hərisləri çəkindirə bilməz. Bu gün müxalifət adı altında ölkədə gəncliyi güdaza vermək istəyənlər unutmasınlar ki, onların ətrafındakılarda vətənsevərlik yoxdur. Bilməlidirlər ki, Azərbaycanımızın bugünkü inkişafını görməyi bacarmayanları xalq qəbul etmir!"

Öz əməli, xilaskarlıq missiyası ilə tarixdə silinməz izlər qoymuş şəxsiyyətlər azdır. Amma hər xalqın, millətin təkamül tarixində belə şəxsiyyətlər olub. Kifayət qədər mürəkkəb və keşməkeşli bir dönəmdə xalqının köməyinə yetən Ulu Öndər Heydər Əliyev Azərbaycanın inkişaf tarixində silinməz izlər qoydu. Onun titanik fəaliyyəti nəticəsində Azərbaycan dünyanın siyasi meydanında öz sözünü deyə bilən qüdrətli dövlətə çevrilir. Başqa xalqların, millətlərin əsrlərlə əldə etdiyini Azərbaycan xalqı bir neçə ilə gerçəkləşdirdi".

Ə.Paşayev adına Sabunçu rayon mədəniyyət evinin direktoru Kərim Kərimov, Nərimanov rayonundakı 39 nömrəli tam orta məktəbin ibtidai siniflər üzrə metodbirləşmənin sədri, şəhid bacısı Sədaqət Məlikova, həmin təhsil ocağının müəllimlərindən Sevinc Paşayeva, Zülfiyyə Həsənova, Sevər Orucova, Təranə Abdullayeva, Qumru Orucova, həmçinin Astara rayon Pensər kənd 2 nömrəli liseyin direktor müavini Elmir Kərimov və digərləri dünən müstəqil dövlətimizin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin müqəddəs məzarını ziyarət edənlərin arasında idilər. Bəli, ziyarətçilər belə qüdrətli dövlətin banisi olduğu üçün Ümummilli Liderlə daim fəxr edəcəklərini bildirir, Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə, respublikamızın inkişafında bundan sonra da əzmkarlıq nümayiş etdirəcəklərini əminliklə söyləyirdilər.

İctimai-siyasi fəaliyyətini, daha doğrusu, mənalı ömrünün bir qərinədən artıq dövrünü xalqımızın və müstəqil dövlətimizin inkişafına həsr edən, bu yolda misilsiz xidmətlər göstərən Heydər Əliyev zamanın tarixini yaradan və yaşadan, onun fövqündə dayanmağı bacaran, dövlət idarəçiliyini kamil bilən fenomen şəxsiyyət kimi yaddaşlara yazılıb.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

## ***İtaliya qəzeti:*** "Heydər Əliyev Azərbaycan-İtaliya strateji tərəfdaşlığına aparan yolun əsasını qoyub"

İtaliyanın "European Affairs" onlayn qəzetində jurnalist Domeniko Letizianın Ulu Öndər Heydər Əliyev haqqında "Heydər Əliyev vəfatının 16-cı ildönümündə Azərbaycan xalqının xatirəsində" sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, italiyalı jurnalist Azərbaycanın müasir tarixinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu, bu gün Azərbaycanın çiçəklənməsi, tammiqyaslı və dinamik inkişaf yaşamasının onun məqsədyönlü strategiyasından irəli gəldiyini bildirir.



REGIONI RUBRICHE ADRENALINA AFFAIRS CHI SIAMO ENG

EA EUROPEAN AFFAIRS
GEOPOLITICA DEL MONDO MODERNO

**Heydar Aliyev nel ricordo del popolo dell'Azerbaigian, a 16 anni dalla sua scomparsa**

Published on 11 Dicembre 2019 — in EST EUROPA — by admin

Il 12 dicembre è una data per l'Azerbaigian, paese molto vicino al nostro per relazioni politiche, economiche e culturali, di grande importanza: sedici anni fa scompariva infatti, in questo giorno, il leader nazionale Heydar Aliyev. La storia dell'Azerbaigian del nuovo millennio la si deve proprio alla sua visione politica, economica e sociale. Agli occhi occidentali, Baku appare una capitale sfavillante, in pieno sviluppo economico, dove gli obiettivi di sviluppo sono priorità istituzionale e il progresso delle infrastrutture è continuo e dinamico. Tale risultato dipende dalla strategia lungimirante, che rappresenta ancora

Come risultato della politica di Heydar Aliyev sono stati raggiunti importanti successi nella costituzione delle forze armate dell'Azerbaigian, è stata fermata l'aggressione militare dell'Armenia contro il Paese ed è stato avviato il processo dei negoziati nella risoluzione del conflitto. Durante tutta la sua permanenza alla guida del paese, Heydar Aliyev ha dedicato una gran parte delle sue attività internazionali a questo conflitto, la cui soluzione, allora come oggi, non può prescindere dal rispetto dell'integrità territoriale dell'Azerbaigian e dal ritiro delle truppe dell'Armenia dai territori azerbaigiani occupati.

Azərbaycanın müstəqilliyinin bərpasından sonra böyük çətinliklərlə üzləşdiyini yazan müəllif ölkənin müstəqilliyinin qorunması, beynəlxalq səviyyədə ilk təmasların qurulması, azad bazar iqtisadiyyatı prinsiplərinə qoşulması, sülh və demokratiya yoluna qədəm qoymasının Heydər Əliyevin fəaliyyətinin nəticəsi olduğunu qeyd edir.

Jurnalist məqaləsində bildirir ki, müstəqilliyin ilk çətin illərində Heydər Əliyev Azərbaycanda modern dövlətçiliyin, güclü dövlət institutlarının qurulmasını, vətəndaş cəmiyyəti və iqtisadiyyatın inkişafını təmin edib.

Jurnalist Ümummilli Liderin fəaliyyətinin əsas istiqamətlərinə diqqəti yönəldərək, bu xüsusda, onun Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün qarşısının alınması və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə nail olunması, ordu quruculuğunun, Azərbaycanın müstəqil siyasətinin təmin olunması, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə transmilli şirkətlərin ölkənin neft və qaz sektoruna cəlb edilməsi, ölkədə sosial-iqtisadi inkişafın əsaslarının qoyulması, müxtəlif din və mədəniyyətlərin sülh içində birgə yaşamasına söykənən multikulturalizm ənənələrinin qorunub saxlanılması və milli maraqların müdafiəsi məqsədilə həyata keçirdiyi siyasi xətt barədə məlumat verir və bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini bildirir.

Heydər Əliyevin Azərbaycan-İtaliya münasibətlərinə də böyük töhfə verdiyini qeyd edən jurnalist Ulu Öndərin 1997-ci ildə İtaliyaya rəsmi səfərinin bu gün iki ölkə arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş əməkdaşlığa aparan yolun əsasını qoyduğunu qeyd edir. Hazırda Azərbaycan və İtaliya arasında siyasi, iqtisadi, mədəni və akademik sahələrdə yüksək səviyyəli əməkdaşlığın mövcudluğunu və ötən ilin iyul ayında İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana dövlət səfərinin də bunu təsdiq etdiyini vurğulayır.

Məqalə ilə aşağıdakı keçiddən tanış olmaq mümkündür: https://www.europeanaffairs.it/blog/2019/12/11/heydar-aliyev-nel-ricordo-del-popolo-dellazerbaigian-a-16-anni-dalla-sua-scomparsa/.

## ***Anadolu agentliyi:*** "Azərbaycanın memarı Heydər Əliyev"



Azerbaycan'ın mimarı Haydar Aliyev

"Ümummilli lider" unvanıyla yaşatılıyor

Türkiyənin Anadolu Agentliyi Ümummilli Lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar analitik məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, "Azərbaycanın memarı Heydər Əliyev" sərlövhəli məqalədə Ulu Öndərin həyatı və siyasi fəaliyyətindən bəhs olunur, onun rəhbərliyi ilə qazanılan uğurlar təhlil edilir. "Ümummilli Lider adı ilə yaşadılır", "Azərbaycanı istiqlala qovuşdurdu", "İqtisadi inkişafın təməlini qoydu", "Türkiyəni həqiqətən də çox sevirdi" yarımbaşlıqları ilə təqdim olunan yazıda dünya şöhrətli siyasi xadimin keçdiyi həyat yoluna dair bioqrafiq faktlar yer alıb.

## Qətərin "The Peninsula" qəzetində Ulu Öndər Heydər Əliyev haqqında məqalə dərc olunub

Qətərin nüfuzlu ingilisdilli "The Peninsula" qəzetində Ulu Öndər Heydər Əliyevə həsr olunmuş məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan xalqının, o cümlədən Azərbaycanın Qətərdəki səfirliyi və Qətərdə yaşayan Azərbaycan icmasının dekabrın 12-də Ümummilli Lider Heydər Əliyevin vəfatının 16-cı ildönümünü hüzn və kədərlə andığı qeyd edilib.



The Peninsula | THURSDAY 12 DECEMBER 2019 HOME | 09

**Azerbaijan's national leader Heydar Aliyev commemorated in Qatar**

Azerbaijan maintains a delicate balance between regional actors and great powers, strengthening the nation's freedom while developing its economy, which in turn increases stability.

Müasir Azərbaycanın qurucusu və Azərbaycanın böyük tarixi lideri olan Heydər Əliyevin ömrünü ölkəsinin və xalqının inkişafına və çiçəklənməsinə həsr etdiyi bildirilən məqalədə Ulu Öndərin həyatı və siyasi fəaliyyəti, eləcə də onun Azərbaycan xalqı qarşısında xidmətləri barədə məlumat verilib.

Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi çətinliklərə və erməni işğalına toxunularaq həmin illərdə ölkənin vətəndaş müharibəsi və müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdiyi bir vaxtda xalqın Heydər Əliyevdən yenidən hakimiyyətə gəlməyi tələb etdiyi xatırlanıb, onun 1993-cü və 1998-ci illərdə iki dəfə ölkə Prezidenti seçildiyi diqqətə çatdırılıb. Heydər Əliyevin ölkəsinin müstəqilliyinin qorunması istiqamətində gördüyü işlərdən danışılıb.

Məqalədə Ümummilli Liderin istər sovet hakimiyyəti illərində, istərsə də Azərbaycan müstəqillik qazandıqdan sonrakı dövrdə ölkəyə rəhbərlik etdiyi vaxtlarda əldə olunmuş nailiyyətlər, o cümlədən Ulu Öndərin neft-qaz strategiyası, "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri barədə geniş məlumat verilib.

Yazıda Ümummilli Lider Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti və aktiv fəaliyyəti sayəsində ölkənin Şərq ilə Qərb arasında etibarlı körpü rolunu oynadığı və dünyanın ən dinamik iqtisadiyyatına sahib dövlətlərdən birinə çevrildiyi nəzərə çatdırılıb.

Məqalədə Heydər Əliyevin qardaş müsəlman ölkələri ilə münasibətlərin inkişafı və möhkəmləndirilməsinə də böyük diqqət ayırdığı qeyd olunub. Onun prezidentliyi dövründə Azərbaycanla İslam Əməkdaşlıq Təşkilatı arasında münasibətlərin genişlənməyə başladığı və bu gün də uğurla davam etdiyi bildirilib.

Yazıda, həmçinin Ümummilli Liderin baxış və strategiyasını izləməklə müasir Azərbaycanın nail olduğu uğurlara toxunulub. Bildirilib ki, bu gün Azərbaycan regional aktorlar və böyük güclər arasında incə tarazlığı qoruyur, öz iqtisadiyyatını inkişaf etdirir. Bu gün Azərbaycan Respublikası bir sıra beynəlxalq layihələrin təşəbbüskarı və vacib iştirakçısıdır. "Bakı Prosesi", Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Humanitar Forumu, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", Cənubi Qafqaz Boru Kəməri kimi bir sıra beynəlxalq layihələr, eyni zamanda, TANAP və TAP layihələri, bir sıra qonşu ölkələrlə üçtərəfli əməkdaşlıq formatları məhz Azərbaycanın təşəbbüsü və ya dəstəyi ilə reallığa çevrilib. Hazırda Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində işlər davam etdirilir.

Məqalədə Heydər Əliyevin bütün azərbaycanlıların qəlbində yaşadığı bildirilib.

# Kiyevdə keçirilən anım mərasimində Ulu Öndərin dövlətimiz və xalqımız qarşısındakı xidmətlərindən danışılıb



Ümummilli Lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar Kiyevdəki Heydər Əliyev adına parkda Ulu Öndərin abidəsinin önündə anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, anım mərasiminin iştirakçıları əvvəlcə Ulu Öndərin abidəsi önünə tər çiçəklər düzərək xatirəsini yad ediblər.

Tədbirdə iştirak edən Baş Nazirin müavini Əli Əhmədov Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişaf etdirilməsində göstərdiyi misilsiz xidmətlərdən danışıb. Bildirib ki, Ulu Öndərin Azərbaycana rəhbərlik illəri ölkəmizin taleyinin və gələcəyinin təyin olunmasında həmişə həlledici rol oynayıb. Sovetlər dönəmində Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi dövr tariximizə əzəmətli sıçrayış və yeniləşmə illəri kimi daxil olub.

"Heydər Əliyevin misilsiz tarixi missiyası ölkəmizin müstəqilliyinə qovuşduqdan sonrakı dövrdə özünü daha qabarıq şəkildə büruzə verib. Azərbaycan xalqı əvəzsiz xidmətlərinə görə Ümummilli Lideri xilaskar adlandırıb. 1993-cü ildə Ulu Öndərin qayıdışı sayəsində Azərbaycan parçalanmaqdan, xaos və anarxiyadan, iqtisadi böhrandan və digər bəlalardan xilas oldu. Ölkədə sabitlik və əmin-amanlıq təmin edildi, islahatlar həyata keçirildi, iqtisadi tənəzzül cilovlandı", - deyə Ə.Əhmədov qeyd edib. Baş Nazirin müavini vurğulayıb ki, Ümummilli Liderin bizə qoyub getdiyi güclü Azərbaycan bu gün onun layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu, düşünülmüş siyasəti nəticəsində daha da güclənir, dünyada söz sahibinə çevrilir.

Baş Nazirin müavini bildirib ki, bütün dünyada olduğu kimi, Ukraynada da kifayət qədər azərbaycanlı yaşayır: "Siz özünüzü həmişə güvənli hesab edə bilərsiniz, sizin arxanızda güclü Azərbaycan və onun Prezidenti dayanır. Mən inanıram ki, burada çalışan bütün soydaşlarımızın, təhsil alan azərbaycanlıların hər birinin ürəyi Azərbaycanla döyünür".

# *Hikmət HACIYEV:* "Ermənistan tərəfindən səsləndirilən ziddiyyətli bəyanatlar danışıqlar prosesinə ciddi xələl gətirir"

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə danışıqlar prosesi davam etdirilir, lakin Ermənistan yenə də destruktiv siyasətini davam etdirir.



AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə açıqlamasında Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan danışıqlar prosesinə bu və ya digər şəkildə manеələr yaradır. İlk növbədə, Ermənistan tərəfindən səsləndirilən ziddiyyətli bəyanatlar danışıqlar prosesinə ciddi şəkildə xələl gətirir.

Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərlərinə toxunan Hikmət Hacıyev deyib ki, erməni jurnalistlərin Azərbaycana səfər edərək öz gözləri ilə gördükləri barədə erməni ictimaiyyətini məlumatlandırmaları vacib şərtlərdən biridir. Nəzərə almaq lazımdır ki, Ermənistanda dövlət səviyyəsində çox ciddi təbliğat aparılır, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsasları və səbəbləri ciddi şəkildə təhrif edilir. Belə bir şəraitdə münaqişə ilə bağlı Azərbaycanın baxışı barədə jurnalistlərin Ermənistan ictimaiyyətini məlumatlandırmalarına ehtiyac var idi. Bu əsasda da ATƏT-in Minsk qrupunun həmsədrlərinin təşəbbüsü ilə jurnalistlərin qarşılıqlı səfərləri həyata keçirildi. Bu, həyata keçirilən ilk təşəbbüslərdən biri idi. Azərbaycan və Ermənistan QHT-lərinin qarşılıqlı səfərlərinə dair təşəbbüslər barədə isə hələlik məlumat yoxdur".

# Kiyevdə GUAM-a üzv ölkələrin hökumət başçılarının plenar iclası keçirilib





Dekabrın 12-də Ukraynanın paytaxtı Kiyev şəhərində GUAM-a üzv ölkələrin hökumət başçılarının plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı Baş Nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Toplantıda GUAM-a üzv ölkələr arasında iqtisadi, siyasi, elmi, mədəni əlaqələrin inkişafı, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin perspektivləri, quruma üzv ölkələrdə münaqişələrin həlli istiqamətində yeni fəaliyyət proqramının hazırlanması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın GUAM-a üzv dövlətlərlə hərtərəfli əlaqələrin inkişafına xüsusi diqqət yetirdiyini bildirən Baş Nazirin müavini Əli Əhmədov son illər ölkəmizin iştirakı ilə bölgədə həyata keçirilən beynəlxalq infrastruktur layihələrinin səmərəli nəticələrindən bəhs edib. Bildirib ki, GUAM ölkələr arasında iqtisadi, ticari əlaqələrin inkişafı üçün əlverişli platformadır. Azərbaycanın həyata keçirdiyi iri nəqliyyat, enerji layihələri GUAM-a üzv ölkələr arasında iqtisadi, ticari əlaqələrin inkişaf etdirilməsinə əsaslı zəmin yaradır.

Əli Əhmədov 2020-ci ildə Azərbaycanın GUAM-a sədrliyi dövründə əsasən infrastruktur, enerji, ticarət layihələrinin qəbul edilməsi üzərində işlərin davam etdiriləcəyini vurğulayıb.

Görüşün iştirakçıları GUAM-a üzv ölkələrin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı məsələsində həmrəy olduqlarını bildiriblər.

Toplantıda çıxış edən Ukraynanın Baş Naziri Aleksey Qonçaruk, Moldovanın Baş Naziri İon Kiku və Gürcüstanın Baş Naziri Georgi Qaxariya təşkilatın fəaliyyət göstərdiyi illərdə beynəlxalq arenada qazandığı nailiyyətlərdən, qurumun qarşısında duran vəzifələrdən bəhs ediblər. GUAM ölkələri arasında azad iqtisadi zonanın yaradılması, sabit inkişafın təmin edilməsi, nəqliyyat, energetika, turizm, elm və mədəniyyət sahələrində mövcud olan əlaqələrin intensivləşdirilməsi və inteqrasiya proseslərinin gücləndirilməsi məsələlərinin müzakirəsinin vacibliyini vurğulayıblar.

İclasın yekununa dair protokol və quruma üzv ölkələrin gömrük idarələri arasında birgə əməkdaşlıq haqqında protokol imzalanıb.

Sonda GUAM ölkələrinin hökumət başçıları qurumun gələcək strategiyası ilə bağlı mətbuat konfransı keçiriblər.

# Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad edilib



Dekabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyub, xalqımızın böyük oğlunun xatirəsinə ehtiramını bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin kollektivləri, hərbi hissələrin, ictimaiyyətin nümayəndələri Ulu Öndərin abidəsi önünə gələrək əziz xatirəsini yad ediblər. Həmin gün muxtar respublikanın bütün rayon mərkəzlərində də Ümummilli Liderin əziz xatirəsi dərin ehtiramla yad edilib.

# ADA Universitetində Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb

ADA Universitetində Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb.

Universitetdən AZƏRTAC-a bildirilib ki, bununla bağlı keçirilən tədbirdə tələbə və müəllim heyəti qarşısında Azərbaycan Respublikası Prezidenti katibliyinin sabiq rəisi, tarix üzrə elmlər doktoru, professor Dilarə Seyidzadə çıxış edib.



Uzun illər xalqımızın Ümummilli Lideri Heydər Əliyevlə birgə çalışmış Dilarə Seyidzadə Ulu Öndərlə bağlı xatirələrini bölüşüb. O vurğulayıb ki, Heydər Əliyev ictimai xadim kimi fəaliyyətinin hər addımında Azərbaycanın milli maraqlarını və Azərbaycan vətəndaşının rifahını üstün tutub. Onun yüksək insani keyfiyyətləri ictimaiyyətlə görüşlərində, xalqla təmaslarında hər dəfə özünü büruzə verib. Belə epizodlardan birini bölüşən Dilarə Seyidzadə bildirib ki, xüsusilə qaçqın və məcburi köçkün düşən əhalinin vəziyyəti Ulu Öndəri narahat edirdi. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi uğrunda yorulmadan xidmət göstərən Heydər Əliyev beynəlxalq platformalarda ölkənin inkişafının sürətlənməsi istiqamətində gərgin iş aparıb. Dilarə Seyidzadə Ulu Öndərin Azərbaycana nə qədər dərin məhəbbətlə bağlı olduğunu, vətəni uğrunda dayanmadan çalışmağa hazır olduğunu nümunələrlə diqqətə çatdırıb.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev professor Dilarə Seyidzadəyə gənclər qarşısında bu tarixi irslə bağlı xatirələrini bölüşdüyü üçün minnətdarlığını bildirib. Anım tədbirinə öz xatirələrini də qatan rektor Hafiz Paşayev Azərbaycanın ABŞ-da ilk səfiri olduğu dövrdə dahi lider Heydər Əliyevi səfərlərdə müşayiət etməsindən danışıb. Bildirib ki, olduqca gərgin iş qrafiki ilə seçilən Ulu Öndərin xarici səfərləri daim dövlət müstəqilliyinin qorunması və Azərbaycanın inkişaf strategiyasına dəstək qazanmağa yönəlib. Hafiz Paşayev Ümummilli Liderin fəaliyyətini əsl diplomatiya məktəbi kimi qiymətləndirib.

# Azərbaycan-Ukrayna əməkdaşlığı müzakirə edilib

Dekabrın 12-də Kiyev şəhərində GUAM-a üzv ölkələrin hökumət başçılarının görüşü çərçivəsində Azərbaycanın Baş Nazirinin müavini Əli Əhmədovla Ukraynanın Baş Naziri Aleksey Qonçaruk arasında görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, görüşdə ikitərəfli münasibətlərin inkişaf perspektivləri, beynəlxalq təşkilatlar, o cümlədən GUAM çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Ukrayna Prezidenti Vladimir Zelenskinin Azərbaycana planlaşdırılan rəsmi səfərinə toxunan A.Qonçaruk bildirib ki, bu səfər iki ölkə arasında əməkdaşlığın inkişafında yeni mərhələ olacaq. Bu gün Azərbaycan və Ukrayna arasında bütün sahələrdə əməkdaşlığın yüksək templə inkişaf etdiyini vurğulayan Baş Nazir iqtisadi əlaqələrin daha da artacağına inamını ifadə edib.

Azərbaycan-Ukrayna iqtisadi-ticarət əlaqələrinə və əməkdaşlığın genişləndirilməsi imkanlarına dair qarşılıqlı fikir mübadiləsinin aparıldığı görüşdə Baş Nazirin müavini Ə.Əhmədov bildirib ki, ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlıq inkişaf edir, beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq davam edir. Qeyd olunub ki, Azərbaycan-Ukrayna əlaqələri iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir, qarşılıqlı investisiya qoyuluşları həyata keçirilir, ticarət dövriyyəsinin həcmində müsbət artım dinamikası müşahidə olunur.

Görüşdə Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev də iştirak edib.

# YAP İcra Katibliyində Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib

Dekabrın 12-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Ümummilli Liderin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, tarixdə adı dövlətçiliyin simvoluna çevrilən və onunla birgə çəkilən çox az sayda siyasi liderə rast gəlmək olar. XX əsr tarixində fenomen şəxsiyyət Heydər Əliyevin yaratdığı milli dövlətçilik tarixin bizə bəxş etdiyi milli sərvətdir və onun dəyəri illər keçdikcə daha dərindən dərk olunur. Bu, Heydər Əliyev siyasətinin böyüklüyünün, bu günümüzə və gələcəyə hesablanmasının aydın ifadəsidir. Tarixi faktlar bu reallığı da təsdiqləyir ki, siyasi liderliyin mahiyyəti dövlətinin, xalqının milli maraqlarına cavab verən inkişaf yolunu müəyyənləşdirmək, ölkəsinə uğur gətirən, daim yüksəkləri fəth etməsini şərtləndirən siyasəti təmin etməkdir. Təbii ki, bu uğurlara yol açan ideyalardır. Bu ideyalar ölkənin dünəninin, bu gününün, gələcəyinin əsası kimi dəyərləndirilir. "Əbədiyaşar lider" məfhumu da məhz bu kontekstdən yaranır. Necə ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyev belə xatırlanır. O, cismən aramızda olmasa da, onun siyasi xətti siyasi idarəçiliyin, milli quruculuğun nəzəriyyəsinə, alternativi olmayan dövlətçilik fəlsəfəsinə çevrilib.

S.Novruzov qeyd edib ki, XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövr kimi xarakterizə olunur. Həmin dövrdə baş verən hadisələr Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirdi. Azərbaycan xalqı müstəqilliyimizin ilk illərində böyük faciələrlə, çətinliklərlə üz-üzə qalsa da, 1993-cü ildə Ulu Öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı və davamlı uğurlara yol açılması bu gün harada yaşamasından asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı tərəfindən böyük qürur hissi ilə xatırlanır, gələcəyimizin daha parlaq, işıqlı olacağına böyük əminlik yaradır. Çünki bu yol hər günü Azərbaycanın tarixinə mühüm uğur səhifəsi kimi yazır. Məhz bunun nəticəsidir ki, ölkəmizin 28 ildə 100 ilə bərabər inkişaf yolu keçdiyi beynəlxalq səviyyədə də etiraf olunur və yüksək dəyərləndirilir. YAP icra katibinin müavini deyib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni-yeni uğurlara imza atır. Bu uğurların əsasında isə Ulu Öndərin müəyyənləşdirdiyi siyasət dayanır. Gənclər Heydər Əliyev irsini dərindən öyrənməlidir. Çünki Azərbaycanın xoşbəxt gələcəyi üçün Heydər Əliyev irsi mühüm rol oynayır.

YAP icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Ulu Öndər Heydər Əliyevin anım günü xalqımız tərəfindən böyük ehtiramla yad edilir. Ümummilli Lider Heydər Əliyev xalqımız üçün böyük bir siyasi irs, dövlətçilik məktəbi, dövlətçilik yolu qoyub. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan xalqının yeganə yolu Heydər Əliyev yoludur. Heydər Əliyev elə böyük şəxsiyyətdir ki, onun xalqımız üçün gördüyü misilsiz işləri saymaqla bitirmək mümkün deyil. Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük tarixi şəxsiyyətlərdən biridir. Heydər Əliyev dövlət başçısı olması ilə bərabər çox həssas, insanlara qarşı çox diqqətli idi. Heydər Əliyevdə əsl lider xüsusiyyətləri və keyfiyyətləri vardı. Bir sözlə, Ulu Öndər Heydər Əliyev bizim yaddaşımızda silinməz izlər qoyub. Bu gün yeni nəsil Heydər Əliyevin nəhəng fəaliyyətini, onun zəngin irsini dərindən öyrənərək mənimsəyir.

M.Qurbanlı qeyd edib ki, bu gün Azərbaycan nəinki regionun lider dövlətidir, eyni zamanda, dünyada böyük nüfuza sahibdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişafı bütün sahələri əhatə edir, əhalinin rifahı davamlı olaraq yüksəlir, Azərbaycan gücünü, qüdrətini daha da artırır. Ölkəmizin həyata keçirdiyi qlobal layihələr beynəlxalq miqyasda Azərbaycanın mövqelərini gücləndirir. Bu nailiyyətlərin əsasında Heydər Əliyev siyasəti dayanır. Azərbaycan xalqı Ulu Öndərin əziz xatirəsini həmişə yad edir və bundan sonra da edəcək.

Anım mərasimində, həmçinin YAP Qaradağ rayon təşkilatı Gənclər Birliyinin sədri Seyidməhəmməd Məmmədzadə, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Günel Quliyeva və Bakı Dövlət Universitetinin tələbəsi Kənan Seyfullazadə çıxış edərək Heydər Əliyev siyasətinin uğurları, Ulu Öndər tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin əhəmiyyəti haqqında fikirlərini bildiriblər.

# "Tədris və tədqiqat imkanlarının gücləndirilməsinə dəstək" layihəsi yekunlaşıb

Dekabrın 12-də ADA Universitetində Avropa İttifaqının maliyyə dəstəyi, "GOPA" Konsaltinq şirkəti, Almaniya Akademik Mübadilə Xidməti (DAAD), "Mastrixt" İdarəetmə Universiteti (MSM) və Boloniya Universitetinin (UNIBO) tərəfdaşlığı ilə həyata keçirilən "Tədris və tədqiqat imkanlarının gücləndirilməsinə dəstək" layihəsinin bağlanış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan ADA Universitetinin prorektoru Fariz İsmayılzadə layihə haqqında məlumat verib. O, layihənin universitetdə icra olunmasının əhəmiyyətindən bəhs edib.



Avropa İttifaqının Azərbaycandakı səfiri Kestutis Yankauskas bildirib ki, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığında təhsil sistemi prioritet istiqamət hesab edilir. O qeyd edib ki, Avropa İttifaqından ümumi dəyəri 2,2 milyon avroya yaxın texniki dəstək qazanan bu layihəyə 2017-ci ilin aprel ayında start verilib. Layihə fəaliyyətini dörd istiqamət üzrə - ADA Universitetində Avropa İttifaqı Məsələləri üzrə Bilik Mərkəzinin (CEEUS) dayanıqlığına nail olunması, tədris metodlarının, formatlarının və əlaqədar xidmətlərin təkmilləşdirilməsi, tədqiqat potensialının inkişafı və ictimai iştirakın və təbliğatın genişləndirilməsini təşkil etməyi qarşısına məqsəd qoymuşdu. Səfir vurğulayıb ki, layihənin 30 aylıq icrası müddətində bu istiqamətdə xeyli iş görülüb, mühüm nəticələr əldə olunub.

ADA Universitetinin tədris işləri üzrə prorektoru Vəfa Kazdal diqqətə çatdırıb ki, layihə universitetin gələcək inkişafına öz müsbət təsirini göstərəcək.

"GOPA" Konsaltinq şirkətinin nümayəndəsi Simone Goncalves təmsil etdiyi şirkətin Azərbaycanda fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verib.

Layihəni icra edən komandanın rəhbəri Georq Simet layihə çərçivəsində görülən işlərdən danışıb. O məlumat verib ki, layihə çərçivəsində təlimlər keçirilib, 23 regiona 12 səfər təşkil edilib. ADA Universitetinin Avropa tədqiqat sahəsinə və tədqiqat və inkişaf proqramlarına inteqrasiyasının genişləndirilməsi, "Erasmus+", "Jean Monnet" qrant proqramlarına təqdim olunması üçün tədqiqat planı və strategiyalarının inkişaf etdirilməsi, Avropa Tədqiqatları üzrə magistr üçün modul planının hazırlanması, rəqəmsal pedaqogika və e-təhsilin "Blackboard" - rəqəmsal və onlayn təlim və öyrənmə proqramı vasitəsilə hərtərəfli öyrənilməsi, ADA Universitetinin MBA proqramının beynəlxalq akkreditasiya üçün hazırlanmasının asanlaşdırılması istiqamətində uğurlu nəticələr əldə olunub.

ADA Universitetində fəaliyyət göstərən Avropa İttifaqı Məsələləri üzrə Bilik Mərkəzinin direktoru Nərgiz İsmayılova, universitetin Biznes fakültəsinin dekanı Elkin Nurməmmədov, akademik idarəçilik və müəllimlərlə iş üzrə direktor Samirə Rəsulova, İctimai və beynəlxalq münasibətlər fakültəsinin dekanı Anar Vəliyev, ADA Universitetinin müəllimi Şəfəq Mehrəliyeva layihə müddətində görülən işlər və əldə olunan nəticələr haqqında ətraflı məlumat veriblər.

Sonda çıxış edən ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev layihənin reallaşmasında əməyi olanlara öz təşəkkürünü bildirib. Rektor uğurlu layihələrin davamlı olacağına əminliyini ifadə edib.

# AŞ PA-nın komitə iclaslarında Azərbaycanda aparılan islahatlar yüksək qiymətləndirilib

Dekabrın 12-də Parisdə Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) İnsan haqları və Monitorinq komitələrinin iclasları keçirilib.

AZƏRTAC xəbər verir ki, iclaslarda ölkəmizi AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və nümayəndə heyətinin üzvü Sabir Hacıyev təmsil edib.

Komitə iclaslarında Azərbaycanda insan haqları məsələsi, bununla bağlı AŞ PA-ya təqdim edilmiş məruzə ətrafında müzakirələr aparılıb. Müzakirələr konstruktiv və peşəkarlıq baxımdan qənaətbəxş olub.

Məruzədə Azərbaycan Respublikası Prezidentinin 2017-ci və 2019-cu illərdə Cinayət Məcəlləsi, məhkəmə sistemi, ümumiyyətlə, hüquq mühafizə sahəsində imzaladığı sərəncamlar, onların nəticəsində aparılmış islahatlar və müsbət dəyişikliklər diqqətə çatdırılıb. Məruzədə ölkəmizlə bağlı "siyasi məhbus" adı ilə təqdim olunmuş müxtəlif siyahılardan imtina edilib, Avropa İnsan Haqları Məhkəməsinin aliliyinin, onun qəbul etdiyi qərarların həyata keçirilməsinin vacibliyi vurğulanıb.

İnsan haqları ilə bağlı ölkəmizdə vaxtilə yaradılmış işçi qrupunun rolu və əhəmiyyəti vurğulanıb, onun davam etdirilməsinin əhəmiyyətinə toxunulub.

Məruzədə vurğulanan müsbət məqamların Azərbaycanda həyata keçirilən islahatların bəhrəsi olduğu bildirilib və bu islahatlar alqışlanıb. Ölkəmizdə keçiriləcək parlament seçkilərində islahatların zəruriliyi və əhəmiyyəti də xüsusi qeyd edilib.

Azərbaycanda aparılan islahatlar AŞ PA ilə konstruktivlik və qarşılıqlı əməkdaşlıq üçün böyük zəmin yaradıb.

Azərbaycan nümayəndə heyəti müzakirə olunan məsələlərlə bağlı mövqelərini bildirib.

Qeyd edək ki, dekabrın 13-də AŞ PA-nın Büro iclasında Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı müzakirələr gözlənilir. Ölkəmizə göndəriləcək nümayəndə heyətinin səlahiyyətləri və seçkilərə dair məsələlər ətrafında fikir mübadiləsi aparılacaq.

# Azərbaycan ilə Latviya arasında əlaqələr yüksək səviyyədədir

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Latviyanın Prezidenti Eqils Levits ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Elmar Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Latviya Prezidenti Eqils Levitsə çatdırıb.

Latviya Prezidenti, öz növbəsində, ən xoş arzularının və salamlarının Azərbaycan Prezidentinə çatdırılmasını xahiş edib.

Görüş zamanı Azərbaycan ilə Latviya arasında əlaqələrin yüksək inkişaf səviyyəsinə malik olduğu qeyd edilib və iki ölkə arasındakı münasibətlərin perspektivləri müzakirə olunub.



Həmçinin beynəlxalq gündəlikdəki aktual məsələlər, o cümlədən müvafiq olaraq regionlardakı vəziyyət barədə fikir mübadiləsi aparılıb. Bu xüsusda, nazir Elmar Məmmədyarov Prezident Eqils Levitsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar prosesinin son vəziyyəti barədə məlumatlandırıb.

Prezident Eqils Levits dövlətlərin ərazi bütövlüyü prinsipinin təmin edilməsinin vacibliyini qeyd edərək ölkəsinin münaqişələrin məhz bu əsasda həll edilməsinin tərəfdarı olduğunu vurğulayıb.

Görüşdə, həmçinin Latviya və Azərbaycan arasında ikitərəfli və çoxtərəfli əlaqələr, Şərq Tərəfdaşlığı çərçivəsində ölkələrimiz arasındakı əməkdaşlığın perspektivləri, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Tərəflər, eləcə də regional nəqliyyat dəhlizləri və enerji layihələrinin inkişafı, ikitərəfli iqtisadi əlaqələrin genişləndirilməsi imkanları barədə geniş fikir mübadiləsi aparıblar.

Görüşdən sonra nazir Elmar Məmmədyarov xatirə kitabını imzalayıb.

# Azərbaycan və Latviya Xarici İşlər nazirlərinin görüşü olub

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Latviyaya rəsmi səfəri çərçivəsində bu ölkənin Xarici İşlər naziri Edqars Rinkeviçs ilə görüşüb.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan və Latviya arasında münasibətlərin hazırkı səviyyəsindən məmnunuq ifadə olunub və inkişaf perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Görüş zamanı tərəflər iqtisadi, ticarət, mədəniyyət, təhsil və digər sahələrdə əməkdaşlıq məsələlərini müzakirə edib, eləcə də Azərbaycan Respublikası və Latviya Respublikası arasında tezliklə Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının iclasının keçirilməsi barədə razılıq əldə ediblər.

Nazir Elmar Məmmədyarov Azərbaycan ilə Latviya arasında ikitərəfli əsasda və bir sıra beynəlxalq və regional təşkilatlar çərçivəsində, eləcə də Avropa İttifaqı ilə səmərəli əməkdaşlığın olduğunu qeyd edərək ölkələrimiz arasında siyasi, iqtisadi, təhsil, kənd təsərrüfatı və digər sahələrdə münasibətlərin daha da inkişaf etdirilməsi üçün əlverişli imkanların olduğunu bildirib.

Edqars Rinkeviçs iki ölkə arasında müxtəlif səviyyələrdə təmasların genişləndirilməsi və siyasi dialoqun davamlı şəkildə aparılması məqsədilə yüksəksəviyyəli qarşılıqlı səfərlərin intensivləşdirilməsinin əhəmiyyətini vurğulayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesinin son vəziyyəti barədə həmkarına məlumat verən nazir Elmar Məmmədyarov Latviyanın ikitərəfli və çoxtərəfli müstəvilərdə münaqişənin nizamlanması ilə bağlı ölkəmizin ədalətli mövqeyini dəstəkləməsinin yüksək qiymətləndirildiyini bildirib.

Edqars Rinkeviçs Latviyanın münaqişənin sülh yolu ilə, beynəlxalq hüququn prinsipləri, xüsusilə ərazi bütövlüyü və suverenlik əsasında həllini dəstəklədiyini diqqətə çatdırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdən sonra Azərbaycan və Latviya Xarici İşlər nazirlərinin mətbuat konfransı keçirilib.

Daha sonra hər iki nazirin rəhbərlik etdiyi nümayəndə heyətlərinin iştirakı ilə "Azadlıq" abidəsinin önündə əklilqoyma mərasimi keçirilib. Mərasimdə Latviya və Azərbaycanın himnləri səslənib.

# Bərpaolunan enerji sahəsində pilot layihələrin reallaşdırılması üzrə Komissiyanın ilk iclası keçirilib

Azərbaycan Respublikası Prezidentinin "Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" 2019-cu il 5 dekabr tarixli sərəncamı ilə yaradılmış komissiyanın ilk iclası keçirilib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Komissiyanın sədri, Energetika naziri Pərviz Şahbazov dövlət başçısı tərəfindən verilmiş tapşırıqların, sərəncamdan irəli gələn vəzifələrin qısa müddətdə icra edilməsinin əsas hədəf olduğunu deyib. Nazir bərpaolunan enerji mənbələrindən istifadə sahəsində Energetika Nazirliyi tərəfindən son bir ildə görülən işlər barədə məlumat verib. Bildirilib ki, bu sahənin inkişafı üçün özəl sektorun cəlbi istiqamətində mühüm addımlar atılıb, beynəlxalq təcrübə öyrənilib, 9 beynəlxalq şirkətlə əməkdaşlıq sənədləri imzalanıb. Ölkədə bərpaolunan enerji sahəsi üzrə mövcud şərait qiymətləndirilib, investorların maraqları nəzərə alınmaqla qanun layihəsi hazırlanıb və razılaşdırma mərhələsindədir. Beynəlxalq şirkətlərin verdikləri təkliflər dəyərləndirilib.



İclasda gündəlikdə duran məsələlər və görüləcək işlər müzakirə edilib. Tədbirlər üzrə 5 işçi qrup yaradılıb. Eyni zamanda, investorlarla beynəlxalq təcrübə nəzərə alınmaqla yerli qanunvericilik şərtlərinə uyğun müqavilələrin hazırlanması ilə bağlı hüquqi, institusional məsələlər üzrə də işçi qrupun yaradılması təklif edilib.

Tədbirlərin sərəncamda nəzərdə tutulan müddətlərdə icrası məqsədilə müvafiq təkliflərin vaxtında təqdim edilməsi işçi qruplarına tövsiyə olunub.

# <u>*Tural GƏNCƏLİYEV:*</u> "Ermənistanın BMT Baş Assambleyasında Şahmat günü ilə bağlı sənəd yayması gülüncdür"

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev Ermənistanın BMT Baş Assambleyasına "Ümumdünya Şahmat Günü" adlı qətnamə layihəsi təqdim etməsi ilə bağlı bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.

"Məlum olduğu kimi, torpaqlarımızın 20 faizini işğal altında saxlayan Ermənistan BMT Baş Assambleyasına "İnkişaf və sülh üçün idman: idman və olimpiya məqsədli dinc və daha yaxşı bir dünya qurmaq" və "Sülh mədəniyyəti" adlı bəndlər altında "Ümumdünya Şahmat Günü" adlı qətnamə layihəsi təqdim edib. Qətnamə layihəsinin əsas qayəsi bəşəriyyəti sülhə, intellektual və mənəvi həmrəyliyə səsləməkdir.

Göründüyü kimi, Ermənistan bu dəfə də özünü dünyaya "sülhpərvər və həmrəylik tərəfdarı" cildində təqdim etməyə çalışır. Əslində, bu, Ermənistan hakimiyyətinin saxtakar, ali dəyərlər pərdəsi arxasında gizlənən riyakar, çirkin xislətindən xəbər verir.

Minlərlə soydaşımızın öldürülməsinə, yüzlərlə insanımızın erməni əsirliyində dəhşətli işgəncələr altında saxlanılmasına, torpaqlarımızın 20 faizinin işğal olunmasına, bir milyondan çox insanın öz yurdundan didərgin düşməsinə və etnik təmizlənməsinə səbəb olan Ermənistan hansı haqla sülh və həmrəylikdən danışır və şahmat oyununu öz çirkin məqsədinə vasitə etməyə çalışır?

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Qarabağ bölgəsində böyük şahmat ənənələri olub. Təkcə Kəlbəcər və Şuşa şahmat məktəblərində torpaqlarımız işğal olunmamışdan öncə minlərlə yeniyetmə bu zəka oyununun sirlərini öyrənirdilər. Mən də bu yeniyetmələrdən biri idim. Atamın Şuşa Şahmat Məktəbinin direktoru olması məndə şahmata olan həvəsi daha da artırmışdı. Mən dəfələrlə Dağlıq Qarabağda keçirilən şahmat turnirlərində iştirak etmişəm. Ən böyük arzum isə gələcəyin tanınmış şahmatçısı olmaq idi. Əminəm ki, torpaqlarımız işğal olunmasaydı, Qarabağ şahmat məktəblərinin yetirmələrinin adları dünyanın şahmat birinciləri ilə eyni sırada çəkiləcəkdi.

Ermənistanın hərbi təcavüzü nəticəsində Qarabağın digər ərazilərində olduğu kimi, Şuşa Şahmat Məktəbinin binası da dağıdılıb. Təkcə dağıdılmış insan həyatları deyil, gözəl ənənələri olan idman və mədəniyyət ocaqlarının məhvinə səbəb olan Ermənistanın ali dəyərlərdən danışması ikrah hissi oyadır. Doğurdanmı, Ermənistan hakimiyyəti dünya ictimaiyyətini aldatmağın bu qədər asan olduğunu düşünür?! BMT Təhlükəsizlik Şurası kimi nüfuzlu bir təşkilatın qətnamələrini heçə sayan Ermənistanın indi bu ali təşkilatda Şahmat günü ilə bağlı sənəd yayması gülünc deyilmi?

Dünya ictimaiyyəti işğalçı Ermənistanın əsl mahiyyətini tanımalı, sülh və həmrəylik kimi ali dəyərlərin bu ölkənin hakimiyyətində olanlara yad olduğunu başa düşməlidir.

Ermənistandan fərqli olaraq biz Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq bəyan edirik ki, öz doğma torpaqlarımıza qayıtdıqdan sonra Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində iki icmanın birlikdə ədalətli və daimi sülh şəraitində yaşaması şəraitində məhv edilmiş şahmat ənənələrini bərpa edəcəyik və dünya bunun şahidi olacaq".

# Azərbaycan-Rusiya İşgüzar Şurasının ümumi yığıncağında illik fəaliyyətin nəticələri və gələcək inkişaf üçün prioritetlər müzakirə edilib

Dekabrın 11-də İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə Azərbaycan-Rusiya İşgüzar Şurasının ümumi yığıncağı keçirilib.

Şuradan AZƏRTAC-a verilən məlumata görə, tədbirdə kənd təsərrüfatı, logistika, sənaye, turizm, maliyyə, tikinti və iqtisadiyyatın digər sahələrində fəaliyyət göstərən 100-dən çox üzv şirkətin rəhbəri iştirak edib.






İclasda çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan-Rusiya İşgüzar Şurasının iki ölkənin iqtisadi-ticarət əlaqələrinin inkişafında rolunu vurğulayıb, Şuranın fəaliyyətinə hər cür dəstək göstəriləcəyini bildirib. İqtisadiyyat naziri sahibkarların biznes təşəbbüslərinin dəstəklənəcəyini, ixracın artırılması, strukturunun diversifikasiyası, mal çeşidinin və coğrafiyasının genişləndirilməsi üçün sistemli tədbirlərin həyata keçiriləcəyini diqqətə çatdırıb, İşgüzar Şuranın üzvlərini İqtisadiyyat Nazirliyi ilə daha fəal əməkdaşlığa dəvət edib.

Azərbaycan-Rusiya İşgüzar Şurasının sədri Səməd Qurbanov bu təşəbbüsü fəal dəstəkləyib və bu formatın biznesin İqtisadiyyat Nazirliyi ilə effektiv əlaqə yaratmasına imkan verəcəyini vurğulayıb.

Səməd Qurbanov çıxışında il ərzində Şuranın ən əlamətdar tədbirləri, o cümlədən Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi ilə birgə həyata keçirilən Rusiya sənaye müəssisələrinin işgüzar missiyası, Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində təşkil olunan Rusiya-Azərbaycan işgüzar dialoqu, onuncu Rusiya-Azərbaycan Regionlararası Forumu çərçivəsində İşgüzar şuraların geniştərkibli iclası, Hökumətlərarası Dövlət Komissiyasının iclasında iştirakı və s. barədə məlumat verib. O, ixtisaslaşmış komissiyaların fəaliyyətinin genişləndirilməsi istiqamətində İşgüzar Şuranın strukturunun gələcək inkişafını diqqətə çatdırıb. Yaxın gələcəkdə maliyyə və informasiya texnologiyaları sahəsində ixtisaslaşdırılmış komissiyaların yaradılacağını qeyd edib.

İclas zamanı komissiya sədrləri: "Turizm" - Anar Rəhmanov, "Qida məhsulları və kənd təsərrüfatı" - İsmayıl Orucov, "Logistika" - Natiq Heydərov, "Sertifikasiya və Gömrük prosedurları" - Namiq Tağıyev və şirkət rəhbərləri: "AS Group Investment" - Şahin Mövsümov, "As Prof Logistics" - Cahid Qurbanov çıxışlarında ixtisaslaşdırılmış fəaliyyət sahələrində təklif və təşəbbüslərini təqdim ediblər.

# Pambıqçılığın innovativ inkişafı sürətlənir






Son illər ölkədə pambıqçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər müsbət nəticələr verir, Azərbaycan bu sahədə əvvəlki şöhrətini qaytarır. İndi elə fermerlər var ki, hər hektardan sovetlər birliyi dövründəkindən çox məhsul toplayırlar.

Söz yox ki, bu nailiyyət daha məhsuldar pambıq sortlarının əkilməsi hesabınadır. İnnovativ texnologiyalara üstünlük verən pambıqçılar çəkdikləri zəhmətin əvəzində daha çox məhsul əldə etmək üçün alimlərə güvənir, onların bu sahədə əldə etdikləri nailiyyətləri təsərrüfatlarına tətbiq etmək istəyirlər. Bu günlər Azərbaycan Dövlət Aqrar Universitetində "Azərbaycanda pambıqçılığın innovativ inkişafı: nailiyyətlər, perspektivlər" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransda da bu və ya digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Konfransda aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən biri olan pambıqçılığın inkişafının müasir səviyyəsi, bu istiqamətdə həyata keçirilən tədbirlərin səmərəliliyi, tətbiq edilən innovativ texnologiyaların müqayisəli qiymətləndirilməsi məsələləri müzakirə olunmuşdur.

Kənd Təsərrüfatı Nazirliyinin və onun struktur bölmələrinin əməkdaşlarının, müvafiq ali təhsil və elmi tədqiqat müəssisələrinin, habelə Özbəkistan və Türkiyə alimlərinin, eləcə də pambıq istehsalçılarının iştirakı ilə keçirilən elmi-praktik konfransda Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov, pambıqçılığın inkişafının indiki vəziyyəti, universitetdə bu sahədə görülən işlər, mütəxəssis hazırlığı, aparılan elmi-tədqiqat işləri və Azərbaycan, Özbəkistan və Türkiyə alimlərinin əməkdaşlığının bundan sonra da genişləndirilməsinin əhəmiyyətindən danışmışdır.

Kənd Təsərrüfatı Nazirliyinin məsul işçisi Şöhrət Vəkilov, nazirliyin bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri Rəfail Quliyev, Daşkənd Dövlət Aqrar Universitetinin prorektoru Abduaziz Abduvasikov, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Türkiyədən olan nümayəndəsi Cemal Taluğ, ADAU-nun ümumi əkinçilik, genetika və seleksiya kafedrasının professoru Nizami Seyidəliyev, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri Kazım Hüseynov və başqaları pambıqçılığın inkişafı istiqamətində görülmüş işlərdən və qarşıda duran vəzifələrdən söz açmışlar.

Konfransda Saatlı rayonundakı "Az-Aqro" MMC-nin nümayəndəsi Nizami Məmmədov pambıq istehsalının artırılması yolları ilə bağlı təkliflərini bildirmişdir.

"John Deere" şirkətinin təşkil etdiyi pambıqyığan kombaynçı kursunu bitirən 10 tələbəyə sertifikatlar verilmiş, sonra iştirakçılar universitetin maddi-texniki bazası, laboratoriyaları, tədris-təcrübə təsərrüfatları və tikilməkdə olan yeni tədris binası ilə tanış olmuşlar. Konfrans işini bölmə iclaslarında davam etdirmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İƏT Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzi Azərbaycan hökumətinə təşəkkür edib

İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin (İƏGF-ARM) İdarə Heyətinin iclası keçirilib.

Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, İdarə Heyətinin sədri Elçin Əsgərovun (Azərbaycan), üzvləri Aygül Qabdrahmanovanın (Tatarıstan), Fsahat Ul-Hassanın (Pakistan), Vaciha Harisin (Rumınıya), İƏGF-ARM-nin Baş direktoru Elməddin Mehdiyevin və müşahidəçi qismində İƏT Gənclər Forumunun Baş direktoru Rasul Ömərovun iştirak etdikləri iclasda mərkəzin fəaliyyəti ilə bağlı gündəlikdə duran mühüm məsələlər müzakirə olunub. Son doqquz ildə forumun Avrasiya üzrə Regional Mərkəzinə evsahibliyinə, göstərilən mütəmadi və əhəmiyyətli dəstəyə görə Azərbaycan hökumətinə İdarə Heyətinin qərarı ilə minnətdarlıq ifadə edilib. Həmçinin 2004-cü il dekabrın 4-də İƏT Gənclər Forumunun Bakıda təsis edilməsinin 15 illiyi ilə əlaqədar qəbul olunan qərarla İƏT platformasında gənclik məsələlərinin institutlaşmasını təmin edən və gəncliyin inkişafını hədəfləyən bu forumun qurulmasında həlledici dəstəyinə və böyük töhfəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə xüsusi təşəkkür ifadə olunub. İclasın iştirakçıları İƏGF-ARM ilə tərəfdaşlıq edən qurumlara, eləcə də 2019-cu ildə iki mühüm beynəlxalq tədbirin (5-ci Kazan İƏT Gənc Sahibkarlar Forumunun və 1-ci Beynəlxalq İƏT Modeli-Avrasiya) uğurla həyata keçirilməsində həmtəşkilatçı qismində iştirak edən Rusiya Federasiyası Tatarıstan Respublikasının hökumətinə minnətdarlıqlarını bildiriblər.



İclasda qurumun Baş direktoru Elməddin Mehdiyevin təqdim etdiyi, İƏGF-ARM-in cari ildəki fəaliyyətinə dair hesabat İdarə Heyəti tərəfindən qəbul olunub. Eyni zamanda, 2020-ci il üçün nəzərdə tutulan və təklif edilən layihə və proqramlar müzakirə edilib. İdarə Heyətinin növbəti iclasının 2020-ci ilin yanvar ayının son həftəsində Pakistanın paytaxtı İslamabadda keçirilməsi qərara alınıb.

# Gəncliyə və gələcəyə ünvanlanmış dəyərlər



*Əvvəli 1-ci səh.*

Müstəqil Azərbaycan Respublikasını tarixin ən böyük nailiyyətlərinə yetirmiş Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətində də gəncliyə qayğı məsələləri mühüm yer tutur. Bu, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlət gənclər siyasətinin müasir dünyamızın reallıqları şəraitində daha böyük əzmkarlıqla davamıdır.

## Tarixə baxış: ən böyük həqiqətlər

Ölkəyə belə böyük dövlət xadimlərinin rəhbərlik etməsi gənclik üçün gələcəyə açılan aydın yollardır. Onların yoluna düşən işıqdır.

Azərbaycan gəncliyi bunu hələ ötən əsrin 70-ci illərində, Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə yaşamışdı. Həmin illərdə ölkəmizdə ali və orta ixtisas məktəblərinin sayının artırılmasına, gənclərin iqtisadi inkişafa cəlb olunması üçün davamlı tədbirlərin həyata keçirilməsinə paralel olaraq gənclərin dünyada baş verən müasir inkişaf meyillərini mənimsəyə bilmələrinə də xüsusi diqqət yetirilirdi. Hər il yüzlərlə azərbaycanlı gənc ölkəmiz üçün xüsusilə mühüm ixtisaslar üzrə peşəkar biliklərə yiyələnməkdən ötrü keçmiş ittifaqın ali məktəblərinə göndərilirdi. Azərbaycanın müxtəlif mərkəzi şəhərlərində gənc ailələrin ev-eşik sahibi olmasından ötrü böyük komplekslər salınırdı. Ulu Öndər Azərbaycan gənclərinin öz potensiallarını reallaşdıra bilmələri, karyera irəliləyişlərinə nail olmaları, həyatlarını qura bilmələri üçün diqqət və qayğısını onlardan bir an belə əsirgəmirdi.

Azərbaycanın müstəqilliyi dövründə də Heydər Əliyev gəncliyin böyük hamisi oldu. Onları öz cılız hakimiyyət maraqlarını təmin etməkdən ötrü gənclərdən alət kimi istifadə edən, bir-biri ilə didişmələrdə gəncləri qurban verən, onların ömrünə qıyan antimilli ünsürlərin əlindən xilas etdi. Gəncliyi cəmiyyət həyatında layiq olduğu yüksək mərtəbəyə yüksəltdi. Elmin, təhsilin, biliklərə yiyələnməyin, vətənə faydalı olmağın gənclik üçün ən böyük dəyər olduğunu onlara anlatdı. Bunlar hamısı yaxın tariximizdir. Müstəqillik dövründə anadan olan, o günlərə şəxsən şahid olmayan gənclərin bu tarixi bilməsi çox mühümdür. Azərbaycan Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyindəki çıxışında da reallıqları düzgün təhlil etmək, onlara doğru qiymət vermək üçün həmin acı dövrlərin yaddan çıxarılmamasını, gənclərin bu tarixi bilmələrini vacib saydı: "Liderin vəzifəsidir dövləti qorumaq, liderin vəzifəsidir xalqla bir yerdə olmaq. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O, hər birimiz üçün nümunədir. Burada əyləşən gənclər də bu tarixi bilməlidirlər. Mən dəfələrlə bunu demişəm. Biz - bu tarixi yaşayan insanlar, əlbəttə ki, heç vaxt bunu unutmayacağıq".

1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş antimilli dəstə həqiqətən Azərbaycanı uçuruma aparırdı. Naşı adamların idarəçiliyi hesabına iqtisadi sistem büsbütün dağılmışdı. Atılan məsuliyyətsiz addımlar bütün qonşu ölkələrlə münasibətləri pozmuş, respublikamıza qarşı təhdidləri daha da gücləndirmişdi. Bir çox millətlərin yaşadığı Azərbaycanın əksər bölgələrində Ermənistanın işğalçılıq siyasətindən sonra yeni separatizm meyilləri baş qaldırırdı. Yenicə bərpa edilmiş müstəqilliyin itirilməsi, ölkənin parçalanması hər an baş verə biləcək acı aqibət idi. Azərbaycan faktiki olaraq əldən gedirdi. Ölkədə xaos, anarxiya, talançılıq, oğurluq, özbaşınalıq, böhran adi həyat tərzinə çevrilmişdi. Həmin illərdə Azərbaycana rəhbərlik edən şəxslərin kimliyi o dövrün acı mənzərəsinin əyani təsvirini yaradırdı.

## Demokrat cildinə girənlər

...1990-cı illərin əvvəllərində küçələrdə, meydanlarda başlanan hadisələrdə millətin oyanışını, xalqın iradəsini görürdük. Amma birdən hər şey dağılmağa başladı: gündəlik yaşayış, davranış tərzimizdən tutmuş mənəviyyatadək hər addımda saxtakarlıq və təhriflərlə üzləşməli olduq. Məhz onda adi həyatımızın özündə necə böyük dəyərlər olduğunu anladıq. Anladıq ki, minillərin süzgəcindən keçib gələn bu dəyərləri davam etdirmək imkanının özü nə qədər böyük bir nemət imiş insan üçün. Müharibə, adi çörəkpulu haqqında düşünməmək, balalarımızın işsiz qala biləcəyindən narahat olmamaq, üç-beş il sonraya ürəklə plan qurmaq, onlara inanmaq... Axı arzusuz, ümidsiz necə yaşamaq olar? Həyatımızdakı nizam dağılanda nəyisə arzulamaq da olmur. Bu isə dəhşətdir.

Ölkə çıxılmaz vəziyyətə düşmüşdü. Cəbhə bölgəsində kəndlər, rayonlar bir-birinin ardınca erməni işğalçılarına təslim edilirdi. Başı hakimiyyət davasına qarışmış vəzifə hərislərinin etinasızlığı üzündən erməni cəlladları Xocalıda dinc əhaliyə qarşı ötən əsrin ən dəhşətli soyqırımını törətdilər.

1992-ci ilin mayında sovet məkanında birinci olaraq Azərbaycanda hakimiyyət dəyişikliyi oldu. Qarabağ torpaqlarının taleyi məsələsinə görə adamlar hər şeyə göz yumurdular. Romantik dövr idi, əksəriyyət dəyişikliklərin parlaq nəticələr verəcəyinə sadəlövhcəsinə inanırdı. Amma əməldə nə oldu?

Onlar amansızcasına talanlara başladılar. Qarabağ torpaqlarını bayraq edib müəssisə-müəssisə gəzib "bolşevik" müsadirəsi aparırdılar. Bu, get-gedə görünməmiş miqyas alırdı. Bütün rəqiblərə, düşmənlərə, hətta dövlət qanunlarına qarşı bir silahdan - zorakılıqdan istifadə edilirdi. Hətta orduda da zor hərbi nizamnamədən yüksəkdə dayanırdı: terrora qədər.

Demokrat cildinə girənlər elə həddə çatmışdılar ki, öz aralarındakı problemləri də zorakılıqla həll etməyə çalışırdılar. Dövlət və qanun olan yerdə bu təbii ki, mümkün deyildi. Bunlar dövləti dağıdaraq həyata keçirilirdi. Beyinlər o qədər qızışmışdı ki, ölkə vətəndaş müharibəsi həddinə gəlib çatmışdı. Dövlət dağılırdı. Hakimiyyəti zordan ibarət sayanlar iki cəbhəyə bölünüb qarşı-qarşıya dayanmışdı. Onların başında kompromis anlayışı yox idi. Hər şey güc ilə həll olunmalı idi. Xalqın erməni işğalçılarına qarşı yaratdığı silahlı dəstələri də öz münasibətlərini həll etməyə cəlb edirdilər. Bir tərəf güc gələndə bu gücpərəstlər özlərini qarşı tərəfin terrorundan qorumaq üçün yeni bir qüvvəyə əl atırdılar. Bir sözlə, AXC-Müsavat cütlüyü ölkəni yeni fəlakətlərə sürükləyirdi.

Bir tərəfdən erməni təcavüzü davam edir, torpaqlarımız dalbadal işğal altına düşür, digər tərəfdən ölkənin həm cənubunda, həm də şimalında separatçılar baş qaldırırdılar. Azərbaycanı parçalamaq və bir dövlət kimi tarix səhnəsindən silmək üçün şərait yetişirdi. 1993-cü ilin iyununda baş verən Gəncə hadisələri artıq ölkədə vətəndaş müharibəsinin başladığına işarə idi. Bu hadisələr AXC-Müsavat cütlüyünün bacarıqsızlığını, səriştəsizliyini ortaya qoymuşdu. Qardaş qanı axıdılarkən belə nəticələr çıxarılmadı, vətəndaş qarşıdurmasına yol verməmək üçün heç bir tədbir görülmədi. Cənub bölgəsində "Talış Muğan Respublikası" elan edən Əlikram Hümbətov, şimalda separatçılıq meyillərinin güclənməsi ilə müşayiət olunan vəziyyət daha da gərginləşməyə başladı.

Heç bir idarəetmə səriştəsi olmayan bir şəxs son dərəcə məsul, taleyüklü vəzifənin altına girmişdi. Onun zəifliyi, iradəsizliyi, qətiyyətsizliyi ölkənin milli maraqlarına zidd olan hər cür qərarların həyata keçməsinə, xarici dairələrin Azərbaycanı öz məqsədlərinə uyğun yönəltmələrinə, ölkədə hərc-mərcliyə şərait yaradırdı. Prezidentin məsuliyyətsiz bəyanatları, düşünülməmiş addımları Azərbaycanın qonşu ölkələrlə münasibətlərini korlamışdı. Respublikaya qarşı xarici təhdidlər güclənmişdi. Xilaskar bir qüvvənin hakimiyyətə gətirilməsi ideyası ortaya atılmasaydı, bunların bir hissəsi digərini qırmalı idi.

Bu xilaskar qüvvə müdrik Heydər Əliyev idi.

## Fəlakətdən qurtuluş

Azərbaycan Prezidenti İlham Əliyev deyir: "Ölkəmizin müstəqilliyəqədərki dövründə də, müstəqillik dövründə də Heydər Əliyev daim xalqın yanında idi və xalqa xidmət etmək onun başlıca missiyası idi. 20 Yanvar faciəsindən sonra o, səsini ucaltdı, Moskvadakı daimi nümayəndəliyə gəlib, orada mətbuat konfransı keçirib, sovet rəhbərliyini, Kommunist Partiyasının rəhbərliyini ittiham etmişdir, bu qanlı faciəni pisləmişdir və bütün dünyaya bu həqiqəti çatdırmışdır. Çünki onun böyük nüfuzu var idi və onun dilindən səslənən sözlər, həqiqətlər dünyanın bütün yerlərində əks-səda vermişdi".

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan kimi dövləti bərpa etdi. 1995-ci ildə yeni Konstitusiya, dünya standartlarına uyğun yeni qanunlar qəbul olundu. Həyatımız dəyişdi.

Azərbaycanda yeni dəyərlər sisteminin və yeni ideyaların meydana çıxmasına stimul yaradıldı. Bu dəyərlər və ideyalar müstəqil Azərbaycan dövlətinin təməl prinsiplərini müəyyənləşdirən baxışlar sistemi kimi nəzərdən keçirilirdi. Ümummilli Lider uçurumun bir addımlığında dayanan millətin öz dövlətini yaşatmasını təmin etmək üçün milli dövlətçilik ideologiyasının ictimai şüurda stereotipləşməsinə nail oldu, bununla da cəmiyyəti ümumi bir məqsəd ətrafında birləşdirdi. Ulu Öndər ölkəni iflasdan, fəlakətdən qurtardı, onu xain əllərdən, çevriliş, qiyam cəhdlərindən hifz edərək dirçəliş və inkişafa doğru yönəltdi. Bu qayıdış əsrlərin sınağından keçə-keçə min bir əziyyətlə məqsədinə doğru addımlayan bir millətin qayıdışına çevrildi və Azərbaycan müstəqillik tarixinin daha şərəfli, əzəmətli mərhələsinə qədəm qoydu. Ulu Öndərin müdrik fəaliyyəti ilə cəmiyyətdə özünəinam hissi bərpa edildi, sabitlik və firavanlığa ciddi təminat yaradıldı. Azərbaycanın sosial-iqtisadi və diplomatik sahədə üzləşdiyi bir çox problemlərin həlli məhz Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonrakı mərhələdə mümkün oldu.

Ümummilli Liderin irəli sürdüyü dövlətçilik konsepsiyası mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dövlətlərini özündə birləşdirən yeni bir inkişaf modeli kimi özünü doğrultdu. İctimai-siyasi sabitliyi və sosial-iqtisadi inkişafı bu modelin əsas dayağına çevirən Heydər Əliyev cəmiyyətdə dayanıqlı milli birliyə nail olmaq üçün hər şeydən öncə, insan hüquq və azadlıqlarının maksimum təminatı məsələsinə xüsusi diqqət yetirdi. Ulu Öndər özünəməxsus müdrikliklə bəyan etdi ki, siyasi sabitlik yaratmadan yeni idarəetmə sisteminə keçidi reallaşdırmaq, bazar iqtisadiyyatı və demokratiya kimi fundamental prinsiplərin tətbiqinə nail olmaq mümkün deyildir. Heydər Əliyev Azərbaycanda milli dövlətçiliyin prioritet inkişaf istiqamətlərini müəyyənləşdirərkən xalqın milli mentalitetinin səciyyəvi cəhətlərini də nəzərə almışdır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dil məsələsinə baxışda da müxtəlif ziddiyyətlər və fikir ayrılıqları meydana çıxmışdı. Bu, xüsusilə AXC-Müsavat hakimiyyəti dövründə özünü daha qabarıq şəkildə büruzə vermişdi. O zaman bəzi qüvvələr heç bir məntiqə, əsasa söykənmədən dövlət dilinin adının dəyişdirilməsini və onun "türk dili" adlandırılmasını təklif edirdilər. 1992-ci ilin dekabrında Milli Məclisdə dövlət dili haqqında qanuna baxılmış və Azərbaycanda dövlət dilinin "türk dili" olması barədə səs çoxluğu olmadan qərar qəbul edilmişdir. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası hazırlanarkən Ulu Öndərin təşəbbüsü və elmi ictimaiyyətin çoxsaylı xahişi nəzərə alınaraq dövlət dilinin necə adlandırılması ilə bağlı yenidən müzakirələrə başlanmış və müxtəlif təkliflər irəli sürülmüşdür. Həmin müzakirələrdə elm, təhsil ictimaiyyəti, ziyalıların böyük əksəriyyəti ana dilimizin Azərbaycan dili adlandırılması ideyasını dəstəkləmişdir. Müzakirələrin nəticəsi olaraq 1995-ci il Konstitusiyasında Azərbaycan Respublikasında dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdı.

## Gənclər bu tarixi bilməlidirlər

Bu tarixi tez-tez xatırlamaq və gənclərin təsəvvüründə canlandırmaq ona görə lazımdır ki, xarici antimilli dairələr və daxili antimilli ünsürlər tək onda deyil, hər zaman gəncləri özlərinə hədəf seçirlər. Öz məqsədlərinə çatmaqdan ötrü onların gücündən, enerjisindən çirkin məqsədlərlə istifadə etməyə cəhd göstərirlər. Bu niyyətlə məqsədli yalanlar dövriyyəyə buraxılır. Yalan ətrafında müzakirələr təşkil edilir. Yalanın real fakt kimi təqdimatı, gənclərin beyninin şər və böhtanlarla zəhərlənməsi üçün xüsusən sosial şəbəkələrdə min oyun çıxarırlar. Amma insanlıq tarixi boyu yalan həmişə həqiqət qarşısında gec-tez ifşa olunub, öz təsir gücünü itirib.

Bəziləri unudurlar ki, 1990-cı illərin əvvəllərində dağıdılmış dövlətin bugünkü səviyyəyə çatdırılması müddətində nə qədər çətin, müşkül problemlər həll olunmuşdur və bu proses indi məqsədyönlü şəkildə və yüksək peşəkarlıqla davam etdirilir. Prezident İlham Əliyev bu məsələyə münasibət bildirərək demişdir: "Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə heç vaxt bu ağır vəziyyətə düşməsin. Azərbaycan heç vaxt gözükölgəli olmasın, heç vaxt başqasının iradəsindən asılı olmasın, heç vaxt başqa dövlətlər qarşısında baş əyməsin".

Dövlətçilik mürəkkəb orqanizmdir. O daim təkmilləşməli, fəaliyyəti yeni istiqamətlərə yönəlməlidir. Biz bu prosesi hər gün, hər saat görür, duyuruq. Müstəqil dövlət kimi biz artıq lazımınca möhkəmlənmişik. Torpağımıza, milli sərvətimizə sahiblik etmək istəyən qüvvələr bizim yekdil və monolit olmağımıza heç də maraqlı deyillər. Dövlət təəssübkeşliyi, müstəqilliyimizin qorunması, xalqın rifah halının yaxşılaşması naminə mütləq bir xətt götürülməlidir. Küçələrə tökülüb təlatüm yaradanlara isə bu gün millət daha inam bəsləmir. Çünki gördüklərimizi, eşitdiklərimizi, baxışlarımızı, münasibət və mədəniyyətimizi, ağlımızı, əxlaqımızı müntəzəm, həm də çox ciddi təhlil edirlər. Bizim sərvətimiz, var-dövlətimiz özümüzə lazımınca yetər, əgər hər kəs Dövlət, Xalq və Vətən mənafeyi üçün çalışsa...

## Gəncliyi ilə böyüyən Vətən

Ən böyük həqiqət bu gün getdikcə inkişaf edən, qüdrətlənən beynəlxalq aləmdə mövqeləri güclənən Azərbaycan dövlətidir, onun qazandığı tarixi nailiyyətlərdir. O dövlət ki gənclərin imkanlarından ölkənin, cəmiyyətin gələcəyi üçün faydalanmağa çalışır. Prezident İlham Əliyevin həyata keçirdiyi gənclər siyasətinin mahiyyəti budur!

Gənclərə öz imkanlarını reallaşdırmaq üçün hər cür şərait yaradılır. Onların təşəbbüsləri dəstəklənir. Azərbaycan gənclərinin cəmiyyət həyatında fəal iştirakı təmin edilir. Onlara etimad göstərilir, gənclər müxtəlif dövlət vəzifələrinə irəli çəkilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr gənclərimizin ictimai fəallığının artırılması baxımından xüsusilə böyük əhəmiyyət daşıyır. Məhz bu layihələr sayəsində bu gün könüllülər hərəkatı ölkəmizdə xoş bir ənənəyə çevrilib. Gənclər həvəslə bu hərəkata qoşulurlar. Həm ölkəmizdə həyata keçirilən irimiqyaslı layihələrin reallaşdırılmasına töhfə verir, həm də qarşılıqlı ideya, təcrübə mübadiləsi mühitində bilik və bacarıqlar əldə edir, sosial çevrə formalaşdırır və karyera irəliləyişi yollarında daha inamla irəliləyə bilirlər.

Azərbaycan gəncliyi vətənpərvər gənclikdir. Onlar doğma torpağa, yurda olan sevgilərini, Azərbaycana bağlılıqlarını tarixin müxtəlif dönəmlərində canları-qanları, zəkaları ilə sübuta yetiriblər. Bu gün Azərbaycan gəncliyi qarşısında duran ən mühüm vəzifə dövlətin yaratdığı imkanlardan bəhrələnərək müasir dövrün bilik və bacarıqlarına yiyələnmək, savadlı, gözəl mütəxəssis olmaqdır. Azərbaycan Prezidentinin gənclərimizə ən əsas tövsiyəsi də budur. Çünki bilik, savad gənclərin, tələbələrin yaxşı, təminatlı gələcəyini müəyyən edən dəyərlərdir. Yalnız bu dəyərlərin gücü ilə gənclərimiz həm fərd, vətəndaş olaraq özlərinin, həm də ölkəmizin parlaq gələcəyini təmin edə bilərlər.

❖ ❖ ❖

Gənclər tariximizi yaxşı öyrəndikcə görəcəklər ki, heç bir kənar, xarici qüvvələr bizim yaxşılığımızı istəməyib, istəmir və bundan sonra da istəməyəcək. Azərbaycanın inkişafı, yüksəlişi yalnız bizim, bu Vətəni sevən, onun firavanlığını arzulayan hər kəsin yerinə yetirməli olduğu missiyadır. Yalnız vətənpərvər, milli ruhda, ənənəvi dəyərlər işığında tərbiyə alan gənclər Azərbaycanı inamla irəli apara bilərlər və aparacaqlar.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan beynəlxalq multikulturalizmin mərkəzinə çevrilib

Tarixən Azərbaycanda bütün dinlərin, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələri sülh, əmin-amanlıq, mehribanlıq, dostluq şəraitində yaşamış, multikultural dəyərlər və tolerantlıq mühiti yüksək səviyyədə olmuşdur.

Müstəqil Azərbaycanda multikulturalizm siyasətinin əsası, eləcə də dövlət-din münasibətlərinin təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş və dövlətçilik ideologiyasına çevrilmişdir. Məhz onun müdrik siyasəti nəticəsində Azərbaycan xalqının tarixi tolerantlıq və multikultural ənənələrini qoruyub saxlamaq mümkün olmuşdur. Müasir dövrdə Azərbaycanın dünyanın əsas multikulturalizm mərkəzlərindən birinə çevrilməsi və ölkəmizin beynəlxalq aləmdə daim artan nüfuzu Ulu Öndərin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və ardıcıl davam etdirilməsinin məntiqi nəticəsidir.

Multikulturalizm cənab Prezidentin daxili və xarici siyasətinin mühüm istiqaməti hesab olunur. Bu siyasətin uğurla həyata keçirilməsi ölkə daxilində etnik-mədəni müxtəlifliklərin və dəyərlərin qorunmasına səbəb olur, ölkə xaricində isə etnik, dini, irqi və mədəni mənsubiyyətlərindən asılı olmayaraq Azərbaycanın digər dövlətlərlə hərtərəfli əlaqələrinin inkişafı üçün əlverişli şərait yaradır.

Multikulturalizm və tolerantlıq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Bütün dini etiqadlar dövlət tərəfindən tam şəkildə təmin edilir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 18-ci maddəsinin 1-ci bəndində qeyd olunmuşdur ki, bütün dini etiqadlar qanun qarşısında bərabərdir. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının qanununun 5-ci maddəsinə əsasən, bütün dinlər və dini qurumlar qanun qarşısında bərabərdir. Heç bir din (dini cərəyan) və dini qurum barəsində digərlərinə nisbətən hər hansı üstünlük və ya məhdudiyyət müəyyən edilə bilməz.

Cənab Prezidentin 14 noyabr 2019-cu ildə Dünya dini liderlərinin II Sammitinin açılış mərasimində söylədiyi kimi, Azərbaycanın qədim dinlərarası ənənələri var. Müxtəlif dövrlərdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda yaşamış, yaratmış və gözəl tarixi miras qoymuşlar. Bunlara nümunə olaraq, islam aləminin ən qədim məscidlərindən biri olan 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidini, Şəkinin yaxınlığında yerləşən Qafqaz Alban kilsəsini, Bakıda yerləşən atəşpərəstlik məbədini - atəşgahı göstərmək olar. Dövlətin maliyyə dəstəyi ilə ölkəmizdə yerləşən bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən tikilmişdir.

Azərbaycanın coğrafi baxımdan Şərqlə Qərbin qovşağında yerləşməsi, çoxmillətli və çoxkonfessiyalı ölkə olması, burada milli-mədəni müxtəlifliyin qorunması və etnik-dini dözümlülük mühitinin mövcud olması onu dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevirmişdir. Azərbaycan bu gün iki fərqli sivilizasiya - Şərqlə Qərbin arasında körpü rolunu oynayır.

Ölkəmiz bütün dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşkilinə xeyli töhfələr vermiş, bir çox uğurlar qazanmışdır.

Cənab Prezidentin xalqımızın tarixi tolerantlıq və multikultural ənənələrinə verdiyi dəyər onun bu sahədə həyata keçirdiyi islahatlardan və onun şəxsi təşəbbüsü ilə ölkəmizdə keçirilən millətlər, mədəniyyətlər və dinlər arasında olan münasibətlərə həsr edilmiş beynəlxalq səviyyəli tədbirlərdən açıq şəkildə aydın olur.

2008-ci ildə Bakıda Avropa Şurasının mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransı keçirilmiş və konfrans çərçivəsində cənab Prezident tərəfindən "Bakı prosesi" təşəbbüsü irəli sürülmüşdür. "Bakı prosesi" - mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsini nəzərdə tutan bir təşəbbüsdür. Cənab Prezident "Bakı prosesi" təşəbbüsü haqqında demişdir: "BMT "Bakı Prosesi"ni dinlərarası, mədəniyyətlərarası dialoqun önəmli platforması kimi qəbul edir. 2008-ci ildə Bakıda Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısı keçirilmişdir və biz qərara gəldik ki, bu toplantıya İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət edək və beləliklə, birinci təmas yarandı. Ondan sonra 2009-cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına biz Avropa Şurasının mədəniyyət nazirlərini dəvət etdik. Bu gün beynəlxalq aləmdə "Bakı Prosesi" çox yüksək qiymətləndirilir və bu, doğrudan da nadir əməkdaşlıq formatıdır".

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) qərarı ilə 2009-cu ildə Bakı islam mədəniyyətinin paytaxtı elan olunmuş, bununla bağlı ölkəmizdə silsilə tədbirlər keçirilmişdir.

2010-cu ilin aprelində Bakı şəhərində "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusunda Dünya dini liderlərinin I Sammiti keçirilmiş, 2019-cu ilin noyabr ayında Dünya dini liderlərinin II Sammiti təşkil olunmuşdur.

2011-ci ildə Bakıda "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu" təşkil edilmiş, bu forumun hər iki ildənbir keçirilməsi qərara alınmış, daha sonra 2013-cü, 2015-ci, 2017-ci, 2019-cu illərdə ölkəmizdə yenidən yüksək səviyyədə təşkil olunmuşdur. Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Qürur hissi ilə deyə bilərik ki, bu möhtəşəm forum müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilmişdir.

2011-2018-ci illərdə ardıcıl olaraq Bakıda keçirilmiş Bakı Beynəlxalq Humanitar Forumunun xüsusi önəmini qeyd etmək lazımdır. Forum - bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə tanınmış dövlət xadimlərini, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı qaliblərini və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya toplayan tədbirdir.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2015-ci ilin sentyabrında Paris şəhərində "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda konfrans keçirilmişdir.

2015-ci ilin noyabrında İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) baş konfransı Bakıda keçirilmiş, "Müsəlman dünyasında mədəni vasitəçilik rolunun təşviqi üçün fəaliyyət planı layihəsinin geniş xətləri" mövzusu müzakirə olunmuş, mühüm qərarlar qəbul edilmiş, habelə növbəti 3 ildə baş konfransa sədrlik Azərbaycana həvalə olunmuşdur.

Daha bir mötəbər tədbir 2016-cı ilin aprelində Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu olmuşdur. Forumda dünyanın 140-dan çox ölkəsindən nümayəndə heyəti, çoxsaylı beynəlxalq təşkilatların, dini konfessiyaların, QHT-lərin nümayəndələri iştirak etmişlər. Bu forumun Azərbaycanda keçirilməsi ölkədə multikultural və tolerant mühitin olmasının göstəricisidir.

15 oktyabr 2019-cu ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 7-ci Zirvə Görüşünün Bakı şəhərində təşkil olunması türkdilli ölkələr arasında əməkdaşlığın, dostluğun və münasibətlərin möhkəmləndirilməsi baxımından çox mühüm hadisə olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 15 may 2014-cü il tarixli fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Ölkə rəhbərinin 11 yanvar 2016-cı il tarixli sərəncamı ilə Azərbaycanda 2016-cı il "Multikulturalizm ili" elan edilmiş və bundan irəli gələrək ölkə və beynəlxalq səviyyədə görüləcək işlərlə bağlı Tədbirlər Planı təsdiq olunmuşdur.

Ölkəmizdə dini dözümlülüyün, dini müxtəlifliyin, milli və dini tolerantlığın, multikulturalizmin, milli-mənəvi dəyərlərin inkişafında və təbliğ edilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri olmuşdur. Onun rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən bu missiya layiqincə yerinə yetirilmiş, ölkə daxilində və xaricdə bir çox mötəbər tədbirlər təşkil olunmuşdur. Ötən bu müddət ərzində Heydər Əliyev Fondu tərəfindən xarici ölkələrdə bir sıra kilsə, məbəd, incəsənət və mədəniyyət evləri bərpa olunmuşdur. Buna misal olaraq, Vatikanda Müqəddəs Sebastian katakombalarının yenidən bərpa olunması və istifadəyə verilməsini də qeyd edə bilərik.

Mehriban xanım Azərbaycan şifahi xalq ədəbiyyatı və milli musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsində xidmətlərinə görə 2004-cü ildə UNESKO-nun xoşməramlı səfiri, humanitar sahədə geniş-miqyaslı fəaliyyətinə, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dilaoqun inkişafına, islam mədəni irsinin təbliğinə və qayğıya ehtiyacı olan uşaqların problemlərinin həllində böyük dəstəyə görə 2006-cı ildə ISESCO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür.

Müasir dövrdə cənab Prezident tərəfindən həyata keçirilən və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti tərəfindən qətiyyətlə dəstəklənən multikulturalizm siyasəti dövlətin tolerantlıq prinsiplərinə sadiq qalmasının bariz nümunəsidir. Ölkəmizin dünyaya təqdim etdiyi multikulturalizm modeli bir çox mütərəqqi dövlətlər tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi tətbiq edilir. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan dünyanın əsas multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir.

***Zeynalabdin MƏMMƏDZADƏ,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsinin magistrantı***

# Naberejnıye Çelnı Dövlət Pedaqoji Universitetində Azərbaycanda multikulturalizm siyasətindən bəhs edilib

Naberejnıye Çelnı Dövlət Pedaqoji Universitetində "Mədəniyyətlərin dialoqu təhsil fəaliyyəti kontekstində" mövzusunda Ümumrusiya Elmi-Praktik Konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, Tatarıstan Respublikasının Təhsil və Elm Nazirliyinin himayəsi ilə keçirilən konfransda həmyerlimiz, fəlsəfə doktoru, Rusiya Elmlər Akademiyasının Rusiya Fəlsəfə Cəmiyyətinin beynəlxalq məsələlər üzrə vitse-prezidentinin müavini Ariz Gözəlov "Mədəniyyətlər dialoqunun fəlsəfi aspektləri" mövzusunda plenar məruzə ilə çıxış edib. A.Gözəlov Azərbaycan multikulturalizmindən, Bakıda mədəniyyətlərin dialoqu mövzusunda dövlət səviyyəsində həyata keçirilən layihələrdən söhbət açıb.

Naberejnıye Çelnı Dövlət Pedaqoji Universitetinin rektoru Alfinur Qaliakberova "Mədəniyyətlərin dialoqu təhsil məkanının inkişafı kontekstində" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi qloballaşma şəraitində mədəniyyətlər dialoqunun artan rolunu qeyd edib. Fransalı qonaq, Reyms Universitetinin Pedaqoji İnstitutunun filialının rektorunun müavini Ruanar Paskalın məruzəsi tədbir iştirakçılarının böyük marağına səbəb olub.

Konfransın işində 400-dən çox adam - təhsil sahəsinin mütəxəssisləri, elmi işçilər, magistrant və tələbələr iştirak edib.

◆Müəllifi İlham Əliyevdir

# Rəqəmsal dünyaya ASAN keçid



Prezident İlham Əliyevin yaratdığı Elektron Hökumətin İnkişafı Mərkəzi innovativ texnologiyalardan istifadə etməklə ölkənin bütün vətəndaşlarına elektron xidmətlərin göstərilməsini təmin edir



*Əvvəli 1-ci səh.*

2008-ci ildən ölkənin elektronlaşması istiqamətində başlanmış işlər artıq Azərbaycanı kosmik fəzaya malik ölkələr sırasına daxil edib.

Ötən ilin mart ayında Prezident İlham Əliyevin fərmanına əsasən Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılan Elektron Hökumətin İnkişafı Mərkəzi 1 illik fəaliyyəti dövründə böyük uğurlar əldə edib. Mərkəz bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq "Elektron Hökumət"in formalaşması üzrə digər dövlət orqanları ilə sıx fəaliyyət göstərməklə müvafiq infrastrukturun yaradılması üzrə çevik fəaliyyət həyata keçirir.

Bəlkə də çoxları üçün müasir texnologiyaların tətbiqi ilə elektron xidmətlərin necə ərsəyə gəlməsi çox maraqlıdır. Elə bizim üçün də maraqlı olduğu üçün Bakı şəhəri Atatürk prospekti, 89 ünvanında yerləşən Elektron Hökumətin İnkişafı Mərkəzində həyata keçirilən proseslərə şahidlik etdik.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə ötən il noyabr ayının 12-də açılışı olan, beşmərtəbəli inzibati binada yerləşən Elektron Hökumətin İnkişafı Mərkəzində publik hüquqi şəxsin fəaliyyətinin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb.

Mərkəz dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və effektiv idarə edilməsi sahəsində koordinasiyanı həyata keçirmək məqsədilə əlaqələndirici qurum kimi funksiyaları yerinə yetirir. Bununla yanaşı mərkəz xidmətlərin əhali arasında təbliğatının da həyata keçirilməsinə məsuldur.

## Burada vətəndaşa birbaşa xidmət yoxdur

Mərkəz fasiləsiz fəaliyyət göstərir, vətəndaşlar "e-gov.az", "My.gov.az". "eTender.gov.az", "asanpay.az" və digər elektron portallarından həftənin 7 günü, 24 saat xidmətlər alırlar. Binada həmçinin ekosistem yaradılıb, yəni binada həm ideya sahibləri, həm o ideyanı inkişaf etdirənlər, investorlar, dövlət təşkilatları, biznes mühiti və elmi camiə var. Bu məkanda vətəndaşa birbaşa xidmət yoxdur, insanlar xidmətləri virtual formada portallar vasitəsi ilə alırlar.

Ötən ilin noyabr ayından fəaliyyət göstərən mərkəzdə 217 əməkdaş çalışır. Hazırda mərkəz tərəfindən dövlət və özəl təşkilatlarla birgə 40-dan çox layihə həyata keçirilir. Ümumilikdə isə 250 qurumla əməkdaşlıq edilir.

Mərkəzin rəhbəri Fariz Cəfərovla söhbət edə-edə burada görülən işlər və həyata keçirilən layihələrlə yaxından maraqlanırıq. Bəlli olur ki, mərkəz müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən ölkə ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və elektron xidmətlərin göstərilməsini təmin edir.

Mərkəzin fəaliyyət istiqamətləri başlıca olaraq elektronlaşdırılmış dövlət xidmətlərini, o cümlədən elektron viza (ASAN viza) verilməsi və rəqəmsal ödəniş sistemləri kimi sahələri əhatə edir. F.Cəfərov deyir ki, son illər vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərini tam rəqəmsallaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq, nəticələrindən dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq əsas hədəfə çevrilib.

Bütün bunlara görə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi, rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zərurəti yaranıb.

## Sənədin etibarlılıq müddətinin bitməsindən tutmuş övladın peyvənd olunmasınadək gələn bildiriş

"Fəaliyyətimiz 1 ili əhatə edir. Bu müddət ərzində "Elektron Hökumət" portalına yeni dizayn vermişik. Reaktiv (insanın dövlətə müraciəti və cavabın alınması) xidmətdən proaktiv (dövlətin vətəndaşa müraciəti) xidmətə keçid etmişik. "MyGov"- "Mənim hökumətim" konseptinə keçidi iyun ayında reallaşdırmışıq. Yəni hökumət bütün xidmətləri vətəndaşa "bir pəncərə"dən təqdim edir, vətəndaş heç yerə getmədən xidmətdən yararlana bilir. Bu, hər bir insanın hökuməti öz həyatında hiss etməsini təmin edən layihədir" deyən mərkəzin rəhbərinin sözlərinə görə, "MyGov" "qabaqlayıcı hökumət" konsepti əsasında vətəndaş, dövlət və biznes qurumlarını vahid platformada birləşdirən elektron xidmətlərin göstərildiyi platformadır.









Bəs vətəndaş bu sistemdən necə yararlanır?

Vətəndaşlar "MyGov" platformasında qeydiyyatdan keçərək "şəxsi kabinet"lərinə daxil olmaqla özlərinə aid məlumatları görə bilirlər. Platformaya daxil olmaq üçün vətəndaşın şəxsiyyət vəsiqəsinin 7 rəqəmli "FİN" kodu və ya gücləndirilmiş elektron imza (elektron imza və ya ASAN imza) lazımdır.

Portala daxil olduqdan sonra hər bir şəxs xidmətlərə elektron qaydada müraciət edə, elektron arayışlar və digər sənədləri əldə edə, məlumatlarının doğruluğunu təsdiqləyə, həmçinin özünə aid məlumatların digər qurumlara ötürülməsi prosesini tənzimləyə bilir.

Sistemin bir neçə üstünlüyünə nəzər yetirək. Əgər istənilən müəssisədə, təşkilatda, bankda vətəndaşdan hər hansısa bir sənəd tələb olunduqda, vətəndaş haqqındakı bilgilərin "MyGov"da yerləşən "şəxsi kabinet"indən götürülməsinə icazə verir. Bu da rəqəmsal transformasiya hesab olunur.

Digər bir üstünlük vətəndaşa göndərilən 7 növ bildiriş mesajlarıdır. Hər hansısa bir sənədinin etibarlılıq müddətinin bitməsinə görə vətəndaşa mesaj gəlir ki, sənədinizin vaxtı bu tarixdə bitir, dəyişmək lazımdır. Hətta övladın peyvənd vurulma vaxtı belə vətəndaşa elektron bildirişlə xatırladılır. Bu bildirişlərin sayı daha da artırılacaq və digər sənədlərlə də bağlı məlumatlar vətəndaşlara bildiriş formasında təqdim ediləcəkdir.

## Dövlət xidmətləri rəqəmsal dövrdə

Ümumiyyətlə, mərkəz "Elektron Hökumət" portalı, "ASAN Viza", "ASAN login", "ASAN ödəniş", "ASAN finans", "ASAN wifi", "ASAN observer", "ASAN bridge", "ASAN index", "E-Agro", Elektron Satınalma Sistemi, Elektron Lisenziya və İcazələr Sistemi, "Digital.gov.az", Avtomatlaşdırılmış Əmək Monitorinqi Sistemi, "İdeya Bankı", "Bir Pəncərə" Tikintiyə İcazə Sistemi, Dövlət Xidmətləri Reyestri, İnsan Resursları Sistemi və quruculuq işləri davam edən digər layihələrin fəaliyyətini təmin edir. Bir neçə mühüm sistemin fəaliyyətinə nəzər yetirək: "ASAN ödəniş" sisteminə artıq 222 qurum (30 mərkəzi icra hakimiyyəti, 79 yerli icra hakimiyyəti, 96 məhkəmə orqanı, 7 publik hüquqi şəxs, 8 dövlətə məxsus hüquqi şəxs, 2 özəl təşkilat və 16 ödəniş sistemi) inteqrasiya olunub. Bundan başqa, 16 Ödəniş Xidməti Təchizatı, 558 xidmət, 10 000 terminal və 1200 poçt şəbəkəsi bu sistemə daxildir. Eyni zamanda "E-manat", "E-pul", "Hesab.az", "MilliÖN" və ölkədə olan digər ödəniş təchizatları bu sistemə inteqrasiya edilib.

"ASAN finans" layihəsi bu ilin fevral ayından fəaliyyətə başlayıb. Hazırda 62 qurum bu sistemə qoşulub. Sistem üzərindən 20-yə yaxın fərqli məlumatlar banklara təqdim edilir və banklar vətəndaşa xidmət göstərir.

"ASAN viza" ölkənin çox önəmli layihələrindən biridir. Buradakı artım tempi də bunu deməyə əsas verir. Belə ki, 2017-ci ilin yanvar ayından fəaliyyətə başlayan sistem vasitəsilə ilk vaxtlar 3 gün ərzində viza verilirdi. Daha sonra əcnəbi vətəndaşın müraciətindən 3 saat sonra vizanın verilməsi təmin edilməyə başlandı. 2018-ci ilin may ayından etibarən beynəlxalq hava limanlarındakı terminallar vasitəsilə 2 dəqiqə ərzində vizanın verilməsi təmin olunur. Hətta Avropa Liqasının Bakıda keçirilən "Çelsi" - "Arsenal" final matçı ərəfəsində vizalar 20 saniyəyə verilib.

## "Elektron Hökumət"in inqilabi yeniliyi - virtual dövlət satınalmaları

Bütün dövlət satınalmaları elektron formada həyata keçirilir. Hər bir proses üçün elektron imza yetərlidir. Dövlət qurumunun nümayəndəsi, tender komissiyası, elektron protokollar, podratçı şirkətlər, təkliflər, qiymətləndirmələr və nəticələrin hamısı elektron qaydada həll edilir. Tenderin nəticələri bəlli olduqda qaliblərə də, məğlub şirkətlərə də bu barədə bildiriş göndərilir. Yəni hər şey virtual həyata keçirilir.

Bunun ardınca sistem İqtisadiyyat və Maliyyə nazirliklərinə qoşulur.

Layihənin vergi dövriyyəsi, işçi qüvvəsinin sayına qədər hesablamalar aparılır. Ümumiyyətlə, bu sistemdə hazırda təqribən 6 min dövlət əsaslı şirkət və qurum iştirak edir.

Mərkəzin rəhbəri deyir ki, dövlət satınalmaları layihəsinin hazırlanması Prezident İlham Əliyevin "Elektron Hökumət" sisteminin formalaşdırılması sahəsindəki islahatlarının inqilabi yeniliyidir. Çünki dünyanın çox az sayda ölkəsində bu formatda təkmil bir sistem yaradılıb.

Bütün bunlar isə dövlətin vətəndaşa göstərdiyi qayğının bariz nümunəsidir. Bu gün Azərbaycanda reaktiv sistemdən proaktiv sistemə keçid mərhələsi uğurla gedir: "Bu, dövlətin yeni yanaşmasıdır və cənab İlham Əliyevin islahatlarının tərkib hissəsidir. Dövlət vətəndaşın bütün problemlərini həll etməyə, onu önləməyə, qabaqlamağa və daha üstün səviyyədə xidmət göstərməyə çalışır. Bunu "qayğı göstərən hökumət" kimi təqdim edirlər" deyə mərkəzin rəhbəri bildirdi.

Mərkəzin rəhbəri onu da diqqətə çatdırdı ki, Prezident İlham Əliyevin fərmanı ilə ölkədə bütün dövlət qurumlarının vahid sənəd dövriyyəsi sistemi hazırlanır.

## Proqramçıların yeni ideyaları, məlumatların qorunmasının məsuliyyəti

Fariz Cəfərovla söhbətimizi yekunlaşdırıb mərkəzdə həyata keçirilən proseslərlə tanış oluruq. Müxtəlif departamentlər gün ərzində layihələrin icrası ilə məşğul olurlar. Burada müxtəlif departamentlər fəaliyyət göstərirlər.

Proqramçılar otağında proqram təminatının hazırlanması prosesi həyata keçirilir. Bir ildir ki, burada baş proqramçı, arxitektor kimi çalışan Fərid Səmədov işindən çox razıdır. "ASAN login" və "MyGov" layihələrinin koordinasiyası ilə məşğul olan proqramçı deyir ki, gün ərzində bu sistemlər üzrə yeni funksiyaların yazılması, yeni layihələrin hazırlanması prosesini həyata keçirir. Bu proseslərin reallaşması çətin olsa da, Fərid üçün çox maraqlıdır: "Rəhbərlik bizə daha innovativ, müasir layihələrin kəşf edilməsinə, hazırlanmasına icazə verir və biz də daim axtarışdayıq. Çalışdıqca isə insan yenilik edə bilir. Müxtəlif ideyalar irəli sürürük və rəhbərlik tərəfindən bu işimiz dəyərləndirilir. Artıq bir neçə ideyamız bəyənilib və tətbiqinə başlanılıb".

Verilənlər bazalarının idarə edilməsi şöbəsi mərkəzin mühüm bölməsindən biridir. Çünki burada bütün vətəndaşların şəxsi məlumatları qorunub saxlanılır.

Mərkəz fəaliyyətə başladığı gündən burada çalışan baş mütəxəssis Şahin Pirverdiyev deyir ki, şöbənin üzərində böyük məsuliyyət var. Çünki istənilən zaman baş verə biləcək təbii fəlakət elektron sistemləri sıradan çıxara bilər. Ancaq onlar mərkəzdəki bütün məlumatların müxtəlif əlavə vasitələrdə saxlanmasını təmin edirlər: "İşimiz məsuliyyət tələb edir. Çünki gördüyümüz işlər verilənlər bazasının təhlükəsizliyinə, onların idarə edilməsinə istiqamətlənib. Mərkəzin layihələri üçün proqramlar, tətbiqlər hazırlayırıq. Bu tətbiqlərə insanlar öz məlumatlarını daxil edirlər. Bu məlumatlar sırasında bank hesabı, ailə tərkibi, digər şəxsi məlumatlar olur. Biz müxtəlif şifrələmə metodları ilə onların təhlükəsizliyini təmin edirik. Əgər fövqəladə hal baş verərsə, həmin məlumatlar dərhal başqa yerə köçürülür".

Baş mütəxəssis deyir ki, burada məlumatların sorğulanması prosesi də həyata keçirilir. Yəni bəzən proqramçılar müəyyən məlumatları əldə etmək üçün müraciətlər edirlər. Şöbənin əməkdaşları bu müraciətlər əsasında məlumatları sorğulayıb proqramçılara ötürürlər. Yəni mərkəzin əsas idarəetmə şöbələrindən biri də buradır: "Bizim şöbəmiz mərkəzin məlumat və informasiyalarının qorunduğu şöbədir. Ani bir səhvdən illərdir toplanan məlumatlar silinə və ya yox ola bilər. Düzdür, sistem yenidən bərpa olunacaq, amma bazanın bərpası mümkün olmayacaq. Bu səbəbdən də bu şöbədə çalışmaq çox məsuliyyətlidir".

## Vətəndaşlar üçün şəffaf, operativ elektron xidmət təkmilləşdirilir

Proqramçılar, İT infrastrukturunun idarəedilməsi üzrə baş mütəxəssislərlə, arxitektorlarla söhbətləşdikcə insan özünü virtual məkanda hiss edir. Layihələrlə tanış olduqca bəlli olur ki, bütün bu elektron proseslər o qədər də asan ərsəyə gəlmir.

Burada mərkəzin əməkdaşlarının istirahəti üçün də şərait yaradılıb. İstənilən əməkdaş boş vaxtında kitabxanada mütaliə edə bilər. Özünü yorğun hiss edən şəxs isə istirahət otağında dincələ bilir.

Mərkəzin fəaliyyəti ilə ümumi tanışlıq bizdə həqiqətən xoş təəssürat yaratdı. Burada həyata keçirilən proseslərə canlı şahidlik etməklə bir daha əmin olursan ki, ölkədə bütün sahələr üzrə islahatlar aparan Prezident İlham Əliyevin müəllifi olduğu daha bir uğurlu layihə vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərir. Ölkədə dövlət xidmətlərini tam elektronlaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq və nəticələrindən dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq əsas hədəfə çevrilib. Bütün bunlara görə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması, rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsini təmin edib.

***Rəşad BAXŞƏLİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Azərbaycanda möhtəşəm inkişaf bütün sahələri əhatə edir



*Əvvəli 1-ci səh.*

"Şahdəniz" kəşf olundu, böyük perspektivə malik bu qaz-kondensat yatağının işlənməsinə qərar verildi.

Prezident İlham Əliyev Ümummilli Liderin bütün sahələrdə müəyyənləşdirdiyi yolu davam etdirərək, sözügedən layihələri müvəffəqiyyətlə başa çatdırdı. Möhkəm bünövrə üzərində yeni-yeni layihələrin həyata keçirilməsi ideyası gerçəkləşdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu layihələrin təşəbbüsçüsü və lideri kimi çıxış etdi.

BTC-dən sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu çəkildi. Azərbaycan eləcə də dünyanın mühüm nəqliyyat layihələrinin iştirakçısı oldu, nəticədə "Şərq-Qərb", "Şimal-Cənub" marşrutu üzrə önəmli qovşağa çevrildi. Ölkəmiz Xəzərin sahillərindən Adriatik dənizinin sahillərinədək 3500 kilometrlik qaz dəhlizi açdı.

Hətta dünyada baş verən maliyyə böhranı Azərbaycan iqtisadiyyatının inkişaf tempinə təsir edə bilmədi. Xam neftin qiymətlərində müşahidə edilən dalğalanma ilə bağlı çağırışlara cavab olaraq Azərbaycan dövləti strateji islahatlar üçün yeni hədəflər, ölkənin gələcək dayanıqlı inkişafına töhfə vermək üçün yeni inkişaf modeli müəyyənləşdirdi. Təsadüfi deyil ki, Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında 2015-ci ildəki 80-ci yerdən 2019-cu ildə 25-ci yerə qədər irəliləyib dünyanın ən yaxşı islahatçı ölkələri sırasına daxil oldu.

Başqa sözlə, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi milli inkişaf strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi, müasir dövrün tələblərinə uyğun olaraq Prezident İlham Əliyevin müəllifliyi və rəhbərliyi ilə reallaşdırılan yeni inkişaf modeli Azərbaycanın hərtərəfli tərəqqisini təmin edib.

Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra atdığı ən mühüm addımlardan biri həyata keçirdiyi torpaq islahatıdır. Belə ki, kəndli öz torpağının sahibi oldu, əkib-becərməkdə, qazanc əldə etməkdə sərbəstlik qazandı. Prezident İlham Əliyev bütün bunların davamı və inkişafı üçün Azərbaycan kəndinə yeni həyat bəxş etdi.

Regionların sosial-iqtisadi inkişafına yönəldilən, 2004-2008-ci, 2009-2013-cü və 2014-2018-ci illəri əhatə edən üç dövlət proqramı çərçivəsində ölkədə genişmiqyaslı və çoxşaxəli işlər görülüb. Rayonlarda iqtisadi inkişaf, ərzaq təhlükəsizliyi, yeni iş yerləri, kortəbii miqrasiyanın qarşısının alınması, yəni insanların öz yurd-yuvasında bərqərar olması, turizmin genişlənməsi bu qəbildəndir.

Neft-qaz sektorundan əldə olunan gəlirlər digər sahələrin inkişafına təkan verir. Nəticədə insanların həyat şəraiti, rifahı da yüksəlir. Dövlət başçısının neft kapitalını insan kapitalına çevirməsi öndə vətəndaşın maraqlarının dayandığını sübut edir.

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev demişdir: "Bu ilin yanvar ayında regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramı qəbul edilmişdir. Bu da çox önəmli hadisədir. III Dövlət Proqramı uğurla və artıqlaması ilə icra edilmişdir. Üç proqramın icrası nəticəsində ölkəmizdə bir çox önəmli məsələlər öz həllini tapıb, o cümlədən sosial infrastruktur sahəsində 3200-dən çox məktəb tikilib və təmir edilib. Bizdə məktəb fondu təqribən 5000-ə yaxındır. Onların böyük hissəsi yenidən qurulub və bu proses davam etdirilir. 640-dan çox tibb müəssisəsi tikilib və yenidən qurulub".

Bütün sahələrdə infrastruktur layihələri həyata keçirilib. Vaxtilə insanları ən çox narahat edən məsələlərdən biri qazın olmaması idi. İndi qazlaşdırılmayan cəmi 3-4 faiz yaşayış məntəqəsi qalıb.

Elektrik enerjisi sarıdan heç bir problem yoxdur. Azərbaycan indi işıqla nəinki əhalini, sosial, istehsal, xidmət təyinatlı obyektləri təmin edir, onu xaricə də ixrac edir.

15 min kilometrdən çox avtomobil yolu bölgələrdə həyatın canlanmasına səbəb olan əsas amillərdən biridir. Bu həm də turizmin inkişafına təkan verir. İldən-ilə daha yüksək göstəricilər əldə edən aqrar sektor üçün də yolların əhəmiyyəti böyükdür.

Ölkənin sənaye xəritəsində iri müəssisələrin sayı ildən-ilə çoxalır. Bu, Azərbaycanın sənaye istehsalı sahəsində böyük işlər görməyə qadir olduğunu göstərir. Eləcə də ölkə iqtisadiyyatına sərmayə qoymaq istəyənlərin sayı artır. Həm də investisiyalar inkişafın ilk mərhələlərində olduğu kimi, təkcə neft sektoruna deyil, iqtisadiyyatın digər sahələrinə də yönəldilir.

Bütün bunların bir əsaslı səbəbi də xalq-iqtidar birliyi, insanların dövlətin siyasətinə rəğbəti, inamıdır. Prezident İlham Əliyevin dediyi kimi: "Əminəm ki, qarşıda duran bütün vəzifələr uğurla icra ediləcək. Tam əminlik var. Ölkə uğurla inkişaf edir. Ölkəmizdə sabitlik təmin olunur. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Siyasətimizə göstərilən dəstək bizi gücləndirir. Əlbəttə ki, biz daha inamla irəliyə, nikbinliklə gələcəyə baxırıq. Çünki ölkənin qarşısında duran bütün vəzifələr icra edilir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

23 dekabr bələdiyyə seçkiləri günüdür

# Dairə və məntəqə seçki komissiyalarında kargüzarlığın təşkili

## Protokolların tərtibi prioritet məsələdir



Məlum olduğu kimi, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının (MSK) 18 oktyabr 2019-cu il tarixli qərarı ilə ölkə üzrə növbəti bələdiyyə seçkiləri cari il dekabrın 23-nə təyin edilib. Respublika üzrə təşkil edilən bu seçkilərdə əhəmiyyət kəsb edən məsələlərdən biri də dairə və məntəqə seçki komissiyalarında kargüzarlığın aparılması qaydalarıdır.

Ümummilli Lider Heydər Əliyevin bilavasitə sədrliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsində vətəndaşlara verilmiş əsas hüquqlardan biri belə ifadə olunub: "Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətdə yazılı cavab verilməlidir".

Müvafiq konstitusion normanın icrası üçün 1997-ci ildə "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının qanunu və bu qanunun tətbiqi haqqında fərman verildi. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr, 2000-ci il 6 mart, 2003-cü il 27 sentyabr və 23 oktyabr, 2005-ci il 19 yanvar, 2015-ci il 14 iyul tarixli fərman və sərəncamları ilə vətəndaşların müraciətləri və sənədlərlə iş barədə təsdiq olunmuş təlimat və qaydaların düzgün, eyni zamanda dəqiq icra olunması hər bir dövlət orqanı, o cümlədən hər bir dövlət qulluqçusu üçün vəzifə kimi müəyyən edilmişdir.

MSK yuxarıda qeyd olunan konstitusion normaların, fərman və sərəncamların, həmçinin bunlardan irəli gələn vəzifələrin yerinə yetirilməsinə daim diqqətlə yanaşmışdır. Məsələnin aktuallığı və vacibliyi nəzərə alınaraq MSK-nın sədri Məzahir Pənahovun təşəbbüsü ilə "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair" Təlimatın aşağı seçki komissiyalarının fəaliyyətində tətbiqi barədə tövsiyələr nəşr edilərək bütün seçki dairələrinin dairə seçki komissiyalarına çatdırılmışdır.

Məlumat üçün qeyd edək ki, 2008-ci ilin yanvarından etibarən dairə seçki komissiyalarında katibliklər formalaşmağa başlamışdır. MSK-nın 10 oktyabr 2007-ci il tarixli 6/16 saylı qərarı ilə təsdiq edilmiş "Dairə seçki komissiyasının katibliyi haqqında Əsasnamə"yə əsasən, dairə seçki komissiyalarının fəaliyyətinin sənədlərlə iş və kargüzarlıq təminatı, iclas protokollarının tərtibi, daxil olan və göndərilən sənədlərin hərəkətinə nəzarət və digər bu kimi vəzifələr yeni yaradılmış katibliklərin baş məsləhətçilərinə həvalə edilmişdir. Məntəqə seçki komissiyalarında isə bu fəaliyyət seçki komissiyalarının sədrləri tərəfindən həyata keçirilir. Odur ki, kargüzarlıq fəaliyyətinin aparılmasında yol verilən nöqsanlara görə bilavasitə yuxarıda adıçəkilən şəxslər məsuliyyət daşıyırlar. Bununla belə, dairə seçki komissiyalarının sədrləri də məntəqə və dairə seçki komissiyalarında aparılan kargüzarlıq işinin keyfiyyətinə daim nəzarət edirlər.

Məlumdur ki, kargüzarlıq hər hansı bir təşkilatın öz vəzifələrini həyata keçirməsi ilə əlaqədar sənədləşdirmə və sənədlərlə işin təşkili üzrə fəaliyyətidir. Seçki komissiyaları strukturlarında fəaliyyət göstərən kargüzarlıq xidmətlərinin əsas vəzifələri daxil olan sənədləri qəbul etmək, qeydə almaq, aidiyyəti üzrə bölüşdürmək, icraçılara çatdırmaq, sənədlərin icra müddətinə nəzarət etmək, icra edilmiş sənədləri müvafiq şəxslərdən tələb etmək, sənədləri göndərmək, sənədlərin surətini çıxarmaq və çoxaltmaq, habelə komissiya sədri tərəfindən onlara həvalə edilmiş digər tapşırıqları yerinə yetirməkdən ibarətdir.

Dairə seçki komissiyasında kargüzarlıq işini aparan şəxs işdən çıxdıqda və ya başqa işə keçirildikdə, seçki komissiyasındakı kargüzarlıq sənədləri bu vəzifəyə yeni təyin edilən şəxsə, belə şəxs olmadıqda komissiya sədrinə təhvil verilməlidir. Məntəqə seçki komissiyası sədrinin səlahiyyətlərinə xitam verildikdə isə sənədlər həmin vəzifəyə seçilən yeni sədrə, yeni sədr seçilməyibsə, müvafiq dairə seçki komissiyasının katibinə təhvil verilir. Məntəqə seçki komissiyası üzvlərinin qanunla müəyyən olunmuş fəaliyyət müddəti başa çatdıqda həmin komissiyanın sədri kargüzarlıqla əlaqədar olan bütün sənədləri müvafiq dairə seçki komissiyasının sədrinə təhvil verməlidir. Məntəqə seçki komissiyası üzvlərinin fəaliyyəti yenidən başladıqda həmin sənədlər müvafiq dairə seçki komissiyası tərəfindən məntəqə seçki komissiyasının sədrinə geri qaytarılır. Sənədlərin təhvil verilib-alınması zamanı 2 nüsxədən ibarət akt tərtib edilir və bu akt həm sənədləri təhvil alan, həm də təhvil verən şəxslər arasında imzalanaraq möhürlənir.

Bir qayda olaraq, tərtib edilən sənədlərin mətnləri iki hissədən ibarət olur. Birinci hissədə sənədin hazırlanması üçün əsas götürülmüş faktların və hadisələrin təsviri verilir, ikinci hissədə nəticələr, təkliflər, qərarlar və sərəncamlar ifadə olunur.

Sənədin hazırlanması üçün başqa sənəd əsas kimi çıxış edirsə, o zaman ona istinad edilməsi zərurəti yaranır. Bu halda yeni sənədin birinci hissəsində onun hazırlanması üçün əsas götürülmüş sənəd növünün adı, nömrəsi, tarixi və mətnin başlığı göstərilir.

Sənədlər göndərilərkən ünvan sahiblərinin rekvizitləri dəqiq göstərilməlidir (sənəd göndərilən təşkilatın, onun struktur bölməsinin adı, vəzifəli şəxsin adı və soyadı, məktub göndərilənin poçt ünvanı). Sənədin düzgün tərtibi, məzmununun aydın ifadə edilməsi və üslubu, tapşırığın vaxtında və keyfiyyətlə yerinə yetirilməsi icraçının bilavasitə əsas vəzifəsidir.

Rəsmi xarakter və hüquqi qüvvə verilməsi üçün sənədin rəsmiləşdirilməsi tələb olunur. Rəsmiləşdirmə sənədin imzalanması, təsdiq edilməsi və ona möhür vurulması vasitəsilə həyata keçirilir. Əgər sənəd blankda tərtib edilirsə, sənədi imzalamış şəxsin vəzifəsi qısa şəkildə göstərilir. Əks halda sənədi imzalamış şəxsin vəzifəsi tam şəkildə göstərilməlidir. Əgər sənədi imzalamalı şəxs xidməti zərurət və ya hər hansı başqa səbəbdən yoxdursa, bu zaman sənəd onun müavini və ya bu vəzifəni icra edən şəxs tərəfindən imzalanmalıdır. Bu zaman sənədi imzalamış şəxsin vəzifəsi, soyadı və adı göstərilməlidir. Sənədi "əvəzinə" sözü yazmaqla və ya vəzifə adının qabağına xətt çəkməklə imzalamaq qadağandır.

Əgər sənədlərə qoşmalar əlavə edilmişdirsə, qoşmanın mövcudluğu haqqında qeyd mətndə sənəddəki imzadan əvvəl yazılmalıdır (Qoşma: ___ vərəq, ___ nüsxə). Qoşmaların imzalanması və onlara möhür vurulması sənədin rəsmiləşdirilməsini təşkil edir.

Aşağı seçki komissiyalarında sənədlərin qeydiyyatı zamanı nəzərə almaq lazımdır ki, seçki hüquqlarının pozulması ilə əlaqədar dairə seçki komissiyasına daxil olan şikayət və müraciətlərin qeydə alınması qaydası MSK-nın "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" 12 avqust 2008-ci il tarixli təlimatı ilə tənzimlənir və onun üçün ayrıca qeydiyyat kitabı aparılır.

Seçki komissiyalarında qərarların və iclas protokollarının tərtibi kargüzarlıq sahəsində prioritet təşkil edən əsas məsələlərdəndir. Qərarların tərtibi ilə bağlı qeyd etmək lazımdır ki, onların strukturu şərh və sərəncam hissələrindən ibarətdir. Bütün hallarda qərarın şərh hissəsində onun prosessual baxımdan qəbuluna əsas verən Seçki Məcəlləsinin müvafiq maddələrinə istinad edilməlidir. Əgər qərarda əks olunan məsələ müxtəlif normativ aktlarla həll edilirsə, şərh hissəsində onların hamısına istinad məcburidir. Bu zaman Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsində göstərilən müəyyən ardıcıllığı gözləmək zəruridir. Əvvəlcə Azərbaycan Respublikasının Konstitusiyasına, referendumla qəbul edilmiş aktlara, daha sonra Seçki Məcəlləsinə və ya digər qanunlara, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarına və nəhayət, MSK-nın əsasnamə, təlimat və izahlarına istinad edilməlidir. Lakin hər bir qərar qəbul edilərkən zərurət olmadan yuxarıda göstərilən aktların hamısına istinad etmək məcburi deyil. Yalnız zəruri aktlara istinad edilməsi vacibdir.

Qərarın sərəncam hissəsi əmr formasında ifadə olunur və şərh hissəsindən sonra mətn dayandırılmadan "qərara alır" sözləri ilə davam etdirilir. Bundan sonra qərarın sərəncam hissəsi müxtəlif bəndlərə bölünə bilər.

Birinci bənddə məsələnin mahiyyəti üzrə həll edilməsi, ikinci bənddə qərarın dərc edilməsi və icrası qaydası, üçüncü bənddə qərardan maraqlı şəxslərin şikayət verməsi qaydası göstərilir. Əgər qərarın icrasının həvalə edilməsi zərurəti varsa, məsələnin mahiyyəti üzrə həll edilməsinə dair bənddən sonra ayrıca növbəti bənd əlavə edilir.

Qərarın maraqlı şəxslərə çatdırılması (bilavasitə təqdimetmə və ya poçtla göndərmə) qərarın icrası sayılır.

Qərarlar qəbul edildiyi gün iclasdan sonra imzalanmalı, bundan sonra müəyyən edilmiş yerdən asılmalı, həmçinin maraqlı şəxslərin tələbi əsasında onlara verilməlidir.

Seçki Məcəlləsinin tələbinə əsasən, dairə seçki komissiyalarının bütün iclasları protokollaşdırılır. Dairə seçki komissiyalarında iclas katibi nəzərdə tutulmadığına görə, iclas protokolunun hazırlanması vəzifəsi dairə seçki komissiyası katibliyinin baş məsləhətçisinə həvalə edilmişdir. Komissiyanın iclaslarında həmin şəxsin iştirakı məcburidir. Baş məsləhətçi üzrlü səbəbdən iclasda iştirak etmədikdə və ya dairə seçki komissiyası katibliyində bu vəzifə boş qaldıqda, dairə seçki komissiyasının sədri protokolun tərtib edilməsini komissiyanın katibinə və ya digər komissiya üzvlərindən birinə həvalə edir. Məntəqə seçki komissiyalarında isə iclas protokollarının tərtibi seçki komissiyasının sədri tərəfindən komissiyanın katibinə və üzvlərindən birinə həvalə edilir. Yuxarıda göstərilənlərdən başqa digər şəxslərin komissiyanın iclasında protokol tərtib etməsi yolverilməzdir.

Bir qayda olaraq, protokolun mətni giriş və əsas hissədən ibarət olmalıdır. Protokolun giriş hissəsinin başlığında onun bir sənəd kimi rəsmi adı və nömrəsi, iclasın keçirilməsinin yeri, tarixi və saatı, iclasa sədrlik edənin soyadı, adı, atasının adı və iclasda iştirak edənlərin tam siyahısı yazılır. İştirak edənlərin siyahısı verilərkən əvvəlcə komissiyanın katibləri, daha sonra həlledici səs hüquqlu komissiya üzvləri, komissiyaya təyin edilmiş məşvərətçi səs hüquqlu üzvlər, komissiya katibliyinin əməkdaşları, daha sonra digər dəvət edilənlərin, o cümlədən müşahidəçilərin və KİV nümayəndələrinin siyahısı, onların adları və soyadları göstərilməklə yazılır.

Protokolun əsas hissəsində əvvəlcə gündəliyin iclasın sədri tərəfindən müzakirəyə çıxarılması, onun səsə qoyulub qəbul olunması və gündəlikdəki məsələlərin siyahısı verilir. Daha sonra iclasa sədrlk edənin çıxışları, gündəlikdə dayanan hər bir məsələ ilə bağlı məruzə və çıxışların qısa məzmunu, komissiya üzvlərinin çıxışlarla bağlı verdikləri suallar, onlara verilən cavablar, məsələ ilə bağlı keçirilən səsvermə və onun nəticələri, sonra isə qərar hissəsi qeyd olunur.

Protokol gündəlikdəki məsələlərin sayından asılı olaraq bəndlərə bölünməlidir. Bəndlər rum rəqəmlərindən istifadə edilməklə, mətndən əvvəl ortada yerləşdirilir. Bundan sonra çıxışların qısa mətni verilir. Məruzə və çıxışların qısa məzmunu üçüncü şəxsin adından verilir. Çıxışlar və bütün sual-cavablar yazıldıqdan sonra məsələ ilə bağlı irəli sürülən təkliflər və onlarla bağlı keçirilən səsvermənin nəticələri əks olunur.

Seçki Məcəlləsinin tələbinə əsasən, bütün iclasların protokolları növbəti iclaslardan birinin gündəliyinə çıxarılmalı və komissiyanın qərarı ilə təsdiq olunmalıdır. Seçki komissiyasının iclas protokolu təsdiq edildikdən sonra komissiyanın sədri, katibləri və digər həlledici səs hüquqlu üzvləri tərəfindən imzalanmalıdır. İclas protokolları və qərarlar təqvim ili çərçivəsində ardıcıl olaraq nömrələnir.

Kargüzarlığın təşkili və aparılması ilə əlaqədar yuxarıda qeyd edilənlərin daim diqqətdə saxlanılması bilavasitə komissiya üzvlərinin peşəkarlığının artırılmasında və seçki sənədləri ilə işin daha da təkmilləşdirilməsində olduqca zəruri və mühüm məsələlərdəndir.

***Elşən ƏSGƏROV,***
***Mərkəzi Seçki Komissiyası Katibliyinin Ümumi şöbəsinin müdiri***

Elm xadimləri

# Görkəmli torpaqşünas, təvazökar insan

Torpağın dilini bilmək asan deyil. Bunun üçün elmin dərinliklərinə yiyələnmək, gecəni gündüzünə qataraq cild-cild kitablar oxumaq, araşdırmalar aparmaq azdır. Torpağın vurğunu olmaq gərəkdir. Görkəmli alim, Milli Elmlər Akademiyasının müxbir üzvü, kənd təsərrüfatı elmləri doktoru, professor Kazım Ələkbərov hər zaman, ilk növbədə özünə qarşı tələbkar, məsuliyyətli, peşəsinə sonsuz sevgi ilə çalışmışdı, Azərbaycanda torpaqşünaslıq elminin inkişafında böyük xidmətlər göstərmişdi. Onun uzun illik fəaliyyətində, elmi yaradıcılığında qazandığı uğurların ən böyük sirri də bu idi.



Kazım Əbdülmanaf oğlu Ələkbərov 17 fevral 1909-cu ildə Bakı şəhərində qulluqçu ailəsində doğulmuşdur. 1929-cu ildə Bakıda orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Politexnik İnstitutunun Kənd təsərrüfatı fakültəsinə daxil olmuşdur. Təhsilini 1931-1932-ci illərdə Tiflis şəhərində Zaqafqaziya Yeni lifli bitkilər İnstitutunda davam etdirmiş, aqronomluq ixtisasına yiyələnməşdir.

O, 1932-ci ildə "Zaqyenlitrest"də əmək fəaliyyətinə başlamışdır. 1939-cu ildə SSRİ EA-nın Azərbaycan filialının Torpaqşünaslıq bölməsində aspiranturaya daxil olmuş, 1943-cü ildə Rusiya Federasiyasında İ.M.Qubkin adına Geologiya İnstitutunda "Stalin adına Samur-Dəvəçi kanalının istiqaməti boyu torpaq və süxurlar" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1934-cü ildə Kənd Təsərrüfatı Nazirliyinin kolxoz kurslarında müəllim kimi fəaliyyət göstərmiş,1934-1939-cu illərdə Azərbaycan SSR Torpaq Xalq Komissarlığının Kimyalaşma Stansiyasında elmi işçi vəzifəsində çalışmışdır.

Azərbaycanın torpaq örtüyünün tədqiq edilməsində Kazım Ələkbərovun böyük xidmətləri olmuşdur. 1934-1950-ci illərdə Ağdaş, Ağstafa, Bərdə, Quba, Abşeron, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Oğuz, Qax rayonları və DQMV üzrə təşkil edilmiş torpaq ekspedisiyalarının rəhbəri kimi aparılan elmi tədqiqatlarda iştirak etmişdir. 1943-1950-ci illərdə Azərbaycan ET Eroziya stansiyasında direktor vəzifəsində çalışmışdır.

Kazım Ələkbərov 1950-ci ildə ET Eroziya Stansiyasının bazasında yaradılan ET Eroziya bölməsinə direktor təyin edilmiş və 1970-ci ilə qədər bu elm müəssisəsinin rəhbəri olmuşdur. Ekspedisiyalarda aparılan elmi tədqiqatların nəticələrini dərindən təhlil edərək elmi cəhətdən əsaslandırmış, Azərbaycan ərazisində gedən su və külək eroziyası məsələləri, yaranma səbəbləri, onlara qarşı mübarizə tədbirləri haqqında hesabatlar, tövsiyə və məqalələr yazmışdır.

Kazım Ələkbərov Böyük Qafqaz, Kiçik Qafqaz və Lənkəran-Astara zonasında gedən eroziya proseslərini dərindən öyrənmək məqsədilə ərazidəki bütün dağ torpaqlarında minlərlə torpaq kəsimi qoymuş, eroziya proseslərinin ekologiya ünsürləri ilə sıx əlaqəsini elmi dəlillərlə sübut etmişdir. Aparılan çoxillik elmi tədqiqatların nəticəsi olaraq "Azərbaycanda torpaq eroziyası və onunla mübarizə" (1961), "Защита почв от эрозии" (1967) adlı monoqrafiyalarını yazmışdır.

Azərbaycanda ölkə torpaqlarının eroziya xəritəsi ilk dəfə Kazım Ələkbərovun gərgin əməyi nəticəsində ərsəyə gəlmişdir. Bu dəyərli kartoqrafiya materialları sonrakı nəsil torpaqşünasların yetişməsində və eroziya elminin inkişafında böyük rol oynamışdır.

Onun həmmüəllifliyi ilə "Azərbaycan SSR-in torpaqları" monoqrafiyası yazılmış, 1:500.000 miqyasında "Azərbaycan SSR-in torpaqları", 1:1.000.000 miqyasında "SSRİ-nin torpaq eroziyası", 1:200.000 miqyasında "Azərbaycan SSR-in səthi meyillilik, eroziya bazisinin dərinliyi, ərazinin qobu, yarğan və quru çay dərələri ilə parçalanması" xəritələri hazırlanmışdır. Alim Azərbaycanın bir çox regionlarının və rayonlarının müxtəlif miqyaslarda torpaq eroziyası xəritələrini də tərtib etmişdir.

1960-cı ildə Şəki rayonu Kişçay çayı hövzəsində eroziya və sel axınlarının öyrənilməsi üçün Azərbaycan SSR EA SOPS-a kompleks ekspedisiyanın rəhbəri kimi torpaq eroziyasının öyrənilməsi və onunla mübarizə üzrə təcrübə mübadiləsi məqsədilə Bolqarıstan Xalq Respublikasına ezam edilmişdir. Eroziya və sel axınlarına qarşı mübarizə üzrə Ümumittifaq müşavirəsinin təşkili üzrə təşkilat komitəsinin sədri seçilmişdir.

1945-1955-ci illər ərzində görkəmli torpaqşünas alim, professor S.S.Sobolevin elmi məsləhətçiliyi ilə apardığı elmi-tədqiqat işlərinin yekunu kimi "Azərbaycan SSR-də torpaq eroziyası və onunla mübarizə" mövzusunda doktorluq işini 1958-ci ildə SSRİ EA-nın V.V.Dokuçayev adına Torpaqşünaslıq İnstitutunda müdafiə etmiş, kənd təsərrüfatı elmləri doktoru alimlik dərəcəsi almışdır. Kazım Ələkbərov azərbaycanlılar arasında torpaqşünaslıq ixtisası üzrə ilk elmlər doktorudur. 1960-cı ildə bu ixtisas üzrə ona professor elmi adı verilmişdir. Azərbaycanın torpaqşünaslıq elminə verdiyi töhfələr nəzərə alınaraq, 1968-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Əmək fəaliyyətini 1970-1974-cü illərdə KTN-nin ET Əkinçilik İnstitutunun direktoru, 1974-1987-ci illərdə Azərbaycan SSR EA-nın Coğrafiya İnstitutunun "Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə" şöbəsinin müdiri vəzifələrində davam etdirmişdir. Kazım Ələkbərov birinci çağırış Bakı şəhəri Nərimanov rayon Xalq Deputatları Sovetinin deputatı seçilmişdir. Torpaqşünaslıq və aqrokimya üzrə terminoloji lüğətin tərtib olunmasında iştirak etmişdir. Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin elmi-texniki Şurasının və Volqoqrad şəhərində "Ölkənin bozqır və meşə-bozqır rayonlarında müdafiəedici meşələrin salınması" problemi üzrə koordinasiya Sovetinin, Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyasının Rəyasət Heyətində torpaqların eroziyadan müdafiəsi problemləri üzrə Şuranın, Moskva şəhəri Torpaq ehtiyatları Dövlət İnstitutunun torpaqların eroziyadan mühafizəsi üzrə Problem Şurasının, "Azərbaycanın təbii-iqtisadi zonaları üzrə kənd təsərrüfatının aparılması üzrə elmi-əsaslandırılmış sistemin işlənilməsi" problemi üzrə Elmi Şuranın üzvü seçilmişdir. Bundan əlavə, Kazım Ələkbərov uzun illər Azərbaycan SSR Elmlər Akademiyasının Coğrafiya İnstitutunun, Torpaqşünaslıq və Aqrokimya institutlarının elmi şuralarının üzvü, Elmi Tədqiqat Eroziya bölməsinin elmi şurasının sədri olmuşdur.

O, "SSRİ-nin Dövlət torpaq xəritəsinin", "Azərbaycanın Dövlət torpaq xəritəsinin", "Azərbaycanın torpaq-eroziya xəritəsinin" müəlliflərindən biri idi.

Kazım Ələkbərov bir sıra mühüm beynəlxalq tədbirlərin iştirakçısı olmuş, Azərbaycanda torpaqların eroziyası sahəsində aparılmış elmi-tədqiqatlar barədə sanballı məruzələrlə çıxış etmişdir. 1961-1963-cü illərdə Moskva şəhərində "Torpaqların su və külək eroziyasına qarşı mübarizəsi üzrə əsas qaydalar"ın tərtibi üzrə keçirilən müşavirədə, Xarkov şəhərində SSRİ torpaqşünaslarının II qurultayında, Daşkənd şəhərində "SSRİ-də torpaqların dağ eroziyası və sel axınlarına qarşı mübarizə" üzrə müşavirədə, 1964-1967-ci illərdə Bolqarıstan Xalq Respublikasında eroziyaya qarşı mübarizə üzrə milli müşavirədə, Tartu şəhərində SSRİ torpaqşünaslarının III qurultayında, Batumi şəhərində torpaq eroziyasına qarşı mübarizə üzrə beynəlxalq müşavirədə, Kişinyov şəhərində zonal müşavirədə, 1968-ci ildə Aşqabad şəhərində "Orta Asiya və Qazaxıstanın səhra ərazilərinin kompleks şəkildə öyrənilməsi və istifadə olunması" mövzusunda ümumittifaq elmi konfransda məruzələrlə çıxış etmişdir.

Genetik torpaqşünaslıq, torpaq eroziyasının bütün sahələri, təbiəti mühafizə problemləri, eroziyaya qarşı mübarizə tədbirləri, torpaqların mühafizəsi, su çatışmazlığı və ətraf mühitin ekoloji tarazlığının pozulması şəraitində kənd təsərrüfatı və meliorasıyanın inkişafı problemləri, torpaqların eroziyadan və səhralaşmadan qorunması, torpaqların münbitliyinin mühafizəsi, qlobal iqlim dəyişmələri şəraitində torpaq və su ehtiyatlarının qorunması və idarə olunması istiqamətində tədqiqatların aparılması və bu şəraitdə kənd təsərrüfatının inkişafı məsələlərinin həlli professor Kazım Ələkbərovun apardığı elmi-tədqiqatların əsas istiqamətləri idi.

Onun elmi rəhbərliyi ilə torpaqşünaslıq və torpaq eroziyası üzrə 25 namizədlik, elmi məsləhətçiliyi ilə isə bir doktorluq dissertasiyası müdafiə edilmişdir. O, beş doktorluq işinin məsləhətçisi, 100-ə yaxın elmi əsərin, o cümlədən iki monoqrafiyanın, səkkiz kitabın, iki kitabçanın, on xəritənin müəllifidir. İyirmi bir elmi əsəri xaricdə çap olunmuşdur.

Qayğıkeş insan olan Kazım müəllimin mənim də elm sahəsinə gəlməyimdə mühüm rolu olmuşdur. V.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə bitirdikdən sonra akademik Həsən Əliyevin tövsiyəsi ilə ilk əmək fəaliyyətimə professor Kazım Ələkbərovun uzun müddət direktor işlədiyi ET Eroziya bölməsində başladım. 1980-1985-ci illərdə Azərbaycan Respublikasının 1:200.000 miqyasında relyefin plastikası xəritəsini tərtib edərkən Kazım müəllim mənə yaxından kömək göstərdi. Xəritənin ərsəyə gəlməsində onun əvəzolunmaz təkliflərinin böyük rolu olmuşdur.

Təvazökar və qayğıkeş insan kimi tanıdığımız Kazım Ələkbərovun elmdəki xidmətləri Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilərək "Şərəf nişanı", "Qırmızı əmək bayrağı" ordenləri, "Rəşadətə görə", "Əmək veteranı" medalları ilə təltif olunmuşdur.

İnsan ömrü sonsuz deyil. Bu dünyada hərənin bir ömür payı var. Ancaq, nə yaxşı ki, insan ömrünün dəyəri, uzunluğu yalnız yaşanmış illərin sayı ilə ölçülmür. Öz faydalı işləri, xeyirxah əməlləri ilə yaddaşlara köçənlər heç vaxt unudulmurlar. Kazım Ələkbərovun da keçdiyi mənalı ömür yolu xatirələrdə yaşayır. Onun elmi fəaliyyəti bu gün də çoxları üçün nümunə sayılır.

***Qərib MƏMMƏDOV,***
***AMEA-nın aqrar məsələlər üzrə müşaviri, akademik***

# Ötən gün ölkəmizə cari ildə üç milyonuncu əcnəbi turist daxil olub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son illər ərzində digər dövlətlərlə sosial-iqtisadi münasibətlərin inkişafı, qarşılıqlı faydalı ticarət əlaqələrinin və ölkəmizə turizm axınının genişlənməsi ilə əlaqədar ölkəmizə gələn və gedən şəxslərin və nəqliyyat vasitələrinin sayı əhəmiyyətli dərəcədə artıb.



Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ildə dövlət sərhədindən keçən şəxslərin sayı 13 faiz, nəqliyyat vasitələrinin sayı isə 12 faiz çox olub. Belə bir şəraitdə DSX Sərhəd Nəzarəti əməkdaşlarının xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi, dövlət sərhədindən keçənlərin sərhəd nəzarətinin səmərəliliyindən məmnuniyyətlərinin yüksəldilməsi, şəxslər və nəqliyyat vasitələri üzərində sərhəd nəzarətinin keçirilməsi müddətlərinin maksimal azaldılması və sürətli keçidinin təmin olunması istiqamətində mühüm işlər görülüb. Nəticədə bir şəxsin sərhədkeçmə prosedurunun rəsmiləşdirilməsinə bir dəqiqədən az vaxtın sərf edilməsinə nail olunub.

Respublikamıza turist axınının artırılması üzrə ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən tədbirlər nəticəsində dekabrın 11-də ölkəmizə il ərzində 3 milyonuncu xarici qonağın gəlişi qeydə alınıb. Həmin şəxs Ankara-Bakı reysi ilə uçub gəlmiş Türkiyə vətəndaşı Seda Ünlü olub. Sərhədçilər tərəfindən gül dəstəsi və simvolik hədiyyələr ilə qarşılanan qonaq bu xoş sürprizdən çox məmnun qaldığını söyləyib və minnətdarlığını bildirib.

## BİZ İNSANIQ


Fikrət Qoca

Yaraşmır heç bir insana,
Öz yaxasın çəksin yana...
Biz insanıq, bu dünyada
Hər insana cavabdehik...
Azərbaycan balasıyam.
Vətənimdə
Hər canlıya, hər cansıza,
Vicdanlıya, vicdansıza cavabdehəm.
Qocalmışam, diş tökülür,
Bel bükülür,
Bəlkə, məni görən gülür.
Mən dilimdən çıxan
Sözə cavabdehəm.
Mən sizin də yerinizə "Mən" deyirəm.
Vətənimdə vətənsizə cavabdehəm.
Mən vətənin
Balasıyam, Qalasıyam!
Həm özümə, həm də sizə cavabdehəm,
Cavabdeh də qalasıyam!

## Atəşkəs rejimi 22 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Ermənistanın Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

*AZƏRTAC*

## "Azercell"dən 5G virtual oyunları və fotomüsabiqə

### Lider mobil operator "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkasında bir ay ərzində həm supersürətli virtual oyunlar, həm də hədiyyəli müsabiqələr təqdim edir

"Azercell Telekom" ənənəsinə sadiq qalaraq bu il də dekabrın 1-dən yanvarın 6-dək "Nargis Fund" tərəfindən Fəvvarələr meydanında keçirilən "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkasına dəstək olur. Xatırladaq ki, xeyriyyə yarmarkasından toplanan vəsait ənənəyə uyğun olaraq, müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyatlarına sərf ediləcək.



Ötən ay Bakının Fəvvarələr meydanında ilk dəfə 5G sürət sınağını həyata keçirən "Azercell" şirkəti builki yarmarka ziyarətçilərinə müasir zamanın ən qabaqcıl və sürətli əyləncə vasitəsi - 5G virtual oyunlarını təqdim edir. Belə ki, heç bir ləngimə olmadan, sürətli və etibarlı bağlantının təmin olunduğu əsl oyun həyəcanını yarmarkaya gələn hər kəs özü yaşaya bilər. İştirakçılar xüsusi Oculus RIFT dəsti vasitəsilə virtual idman ərazisində "multiplayer" rejimində özlərini çoxsaylı oyunçulardan biri olaraq təsəvvür edəcəklər. Bütün bunlar "Azercell"in ölkəmizdə ilk dəfə olaraq test rejimində təqdim etdiyi 5G sürəti ilə mümkün olacaq.

Bundan əlavə, "Azercell" "Soyuq əllər, isti ürək" yarmarkasına gələn hər kəs üçün Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə *"Rəqəmsal dünyada da həmrəy olaq!"* şüarı altında fotomüsabiqə elan edir. 5 yanvar 2020-ci il tarixinə qədər keçiriləcək müsabiqənin iştirakçıları müsabiqə mövzusunun atributuna aid çəkdikləri şəkli "Azercell" heşteqi altında "Facebook" və "Instagram" səhifələrində yükləməklə şirkətdən dəyərli hədiyyələr əldə edəcəklər.

Müsabiqənin şərtləri ilə aşağıdakı səhifə vasitəsilə daha ətraflı tanış olmaq olar: www.azercell.com/musabiqe

Beləliklə, "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkasının "Azercell" guşəsini ziyarət edən hər kəs soyuq qış günlərində həm əylənə, həm də hədiyyə qazana biləcək.

***"Azərbaycan"***

## BİLDİRİŞ

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin 03 dekabr 2019-cu il tarixdə LOT 1- Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsinin cari təmir işlərinin; LOT 2- Uşaq Bərpa Mərkəzinin cari təmir işlərinin; LOT 3- Respublika Əlillərin Bərpa Mərkəzinin cari təmir işlərinin satın alınması məqsədilə elan etdiyi təkliflər sorğusunda Tender komissiyasının qərarına əsasən "AZ AVS" Məhdud Məsuliyyətli Cəmiyyəti təkliflər sorğusunun qalibi elan edilmiş və qalib müəssisə ilə müvafiq müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Mühafizə xidmətləri" xərclərinin satın alınması məqsədilə 03 dekabr 2019-cu il tarixdə keçirdiyi elektron tender prosedurunda "GESCO" Açıq Səhmdar Cəmiyyəti qalib elan edilmiş və bu təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 15.11.2019-cu il tarixdə keçirilmiş "Bakı Metropoliteni" QSC-nin vaqonlarının pasportlarının rəqəmsallaşdırılması xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə "BAKİNİTY DİSTRİBUTİON" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 29.11.2019-cu il tarixdə ƏDV daxil 21240,00 manat (iyirmi bir min iki yüz qırx manat 00 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

AZƏRLOTEREYA

# Yeni "Kart Manat" ani lotereyası

### "Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti mütəmadi olaraq yeni-yeni layihələr hazırlayıb lotereya iştirakçılarının ixtiyarına verir

"Azərlotereya"nın keçirdiyi layihələr sırasında xüsusi olaraq ani lotereyaları qeyd etmək lazımdır. Cəmiyyət tərəfindən təşkil olunan ani lotereyalar artıq bir ənənəyə çevrilmiş və lotereya həvəskarları arasında xüsusi maraq və rəğbət qazanmışdır. "Azərlotereya" ASC-nin son layihələrindən olan "Kart Manat" ani lotereyasının şərtləri və oynanılma qaydası haqqında məlumatı Sizə təqdim edirik.




"Kart Manat" ani lotereya biletinin qiyməti 1 (bir) manat, ümumi tiraj isə 2 milyon ədəd təşkil edir. Lotereyanın uduş fondunun oynanılma qaydası: lotereya biletinin üzərindəki lövhədə "uduş" lövhəsi, "bonus" xanası və 9 ədəd oyun xanası (Oyun 1, Oyun 2, Oyun 3, Oyun 4, Oyun, Oyun 5, Oyun 6, Oyun, Oyun 7, Oyun 8 və Oyun 9) əks olunub. "Uduş" lövhəsinin, "bonus" xanasının və "oyun" xanalarının qoruyucu səthlərini pozmaq lazımdır. "Bonus" xanası, "oyun" xanalarında udulan məbləği dəfələrlə artırmaq şansını verir (x1, x2, x4, x5). Oyunun mahiyyəti: "üstüörtülü" xanaları pozduqdan sonra "uduş" lövhəsində əks olunan məbləğ oyun xanasında (xanalarında) əks olunan məbləği ilə üst-üstə düşərsə, bilet uduşlu sayılır və "uduş" xanasındakı məbləği qazanmış olur. Əgər bilet bir neçə oyun xanası üzrə uduşlu olarsa, uduşlar cəmlənir. Toplam uduş - uduş məbləğinin "bonus" xanasındakı rəqəmə vurulması ilə müəyyən olunur.

"Kart Manat" ani lotereyasında çoxsaylı pul mükafatları lotereya iştirakçılarının yolunu gözləyir. Həmçinin "Kart Manat" ani lotereyasında 10 ədəd 1000 manat, 8 ədəd 5000 manat və 2 ədəd 30 000 manat pul mükafatı şanslı qalibini gözləyir.

Bildiririk ki, Azərbaycan Respublikasının ərazisində "Azərlotereya" ASC-nin təşkil etdiyi lotereyalarda 18 (on səkkiz) yaşına çatmış şəxslər könüllü şəkildə lotereya oyununda iştirak edə bilərlər.

Biz hər bir lotereya iştirakçısına uğurlar arzulayırıq.

Lotereya biletlərini əldə edin, şanslı lotereya iştirakçısına çevrilin və qalib olun!

**Sizin "Azərlotereya"**

## BİLDİRİŞ

### Sumqayıt Şəhər İcra Hakimiyyəti "İnventarın alınması" xərcləri ilə bağlı kotirovka sorğusu ilə bütün növ mebellərin satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (018) 65 51448 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 18 dekabr 2019-cu il saat 17:00-dək qəbul olunur.

**Ünvan: Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9**

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Nobel mükafatçısı Kosovo və Sarayevoda persona non qrata elan edildi



Kosovo bu il ədəbiyyat üzrə Nobel mükafatı laureatı olmuş avstriyalı yazıçı Peter Handkeni persona non qrata elan etmişdir. Bu barədə Xarici İşlər nazirinin səlahiyyətlərini icra edən Becət Patsoli məlumat vermişdir.

Patsoli Handkenin keçmiş Yuqoslaviya üzrə Haaqa Beynəlxalq Tribunalı tərəfindən insanlığa qarşı cinayətlərdə ittiham olunmuş Serbiyanın eks-prezidenti Slobodan Miloşeviçlə yaxın münasibətlərini şəhr edərkən Facebookda yazmışdır: "Cinayətləri təkzib etmək və cinayətkarları dəstəkləmək dəhşətli cinayətdir". Handke 2006-cı ildə Haaqa tribunalının həbsxanasında ürəktutmadan ölmüş Miloşeviçin dəfnində iştirak etmişdi.

Bosniya və Herseqovinanın Sarayevo kantonu da öz parlamentinin qərarı ilə Peter Handkeni persona non qrata elan etmiş, ona Nobel mükafatı verilməsini "hərbi cinayətlərin qurbanlarının ruhunu növbəti dəfə təhqir etmək" kimi qiymətləndirmişdir.

Bundan əlavə, Xorvatiya, Bosniya və Herseqovina, Albaniya, Türkiyə və Kosovo səfirləri dekabrın 10-da İsveçin paytaxtı Stokholmda avstriyalı yazıçıya Nobel mükafatının təqdim olunması mərasimini boykot etmişdilər.

## ABŞ İranı yenidən cəzalandırdı



ABŞ İranın gəmiçilik şirkətlərinə ("İRİSL Groop"), onların çinli "E-Sail Shipping Company Ltd" törəməsinə və İranın "Mahan Air" aviasiya şirkətinə qarşı sanksiyalar tətbiq etmişdir. Bu barədə Dövlət Departamenti məlumat vermişdir.

Məlumatda deyilir ki, adıçəkilən şirkətlər kütləvi qırğın silahlarının yayılması ilə əlaqəli olan daşınmalar həyata keçirdiyinə görə cəzalandırılmışdır.

Bundan əlavə, İran silahını qaçaqmalçılıq yolu ilə Yəmənə göndərməkdə kömək etmiş daha 8 struktur sanksiyalara məruz qalmışdır.

Məlumatda qeyd olunur ki, "Mahan Air" və onun satış üzrə üç agenti barəsində sanksiyalar dərhal qüvvəyə minir. "İRİSL Groop" və "E-Sail Shipping Company Ltd"yə gəlincə, Dövlət Departamenti İrana humanitar mal ixracatçılarına alternativ daşıma üsulları axtarıb tapmaq üçün möhlət verir.

## İsraildə 11 ayda üçüncü parlament seçkiləri keçiriləcək



İsrail Knesseti (parlament) özünü buraxmış və gələn il martın 2-də ikinci təkrar və 11 ay ərzində üçüncü parlament seçkilərinin keçirilməsi haqqında qanunu təsdiqləmişdir. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Dünən hökumət koalisiyasını formalaşdırmaq üçün üçüncü və sonuncu cəhddə deputatlara ayrılmış 21 günlük müddət bitmişdir. Bundan əvvəl "Likud" partiyasının başçısı Binyamin Netanyahu və müxalifətçi "Kaxol-lavan" blokunun rəhbəri Benni Qants növbə ilə 28 gün ərzində hökuməti təşkil etməyə cəhd göstərmişdilər. Lakin bu cəhdlər uğursuz olmuşdur.

Ötən ayın 21-də hazırkı Baş Nazir Netanyahuya qarşı dələduzluq, korrupsiya və dövlətə xəyanət ittihamları irəli sürülmüşdür.

Xatırladaq ki, sentyabrın 17-də keçirilmiş seçkilərdə 120 mandatdan 33-nə yiyələnmiş müxalifət bloku parlamentdə ən güclü siyasi qüvvə olmuşdu. Bunadək hakimiyyətdə olan "Likud" 32 mandatla ikinci yeri tutmuşdu. Lakin partiyaların heç biri və onların müttəfiqləri hökuməti təşkil etmək üçün zəruri olan 61 mandatlıq çoxluğa malik deyil.

## Perudan Meksikaya 2 ton kokain daşıyan sualtı qayıq saxlanıldı

Perunun şimal sahillərinin yaxınlığında ölkənin hərbi dəniz qüvvələrinin patrul gəmisi içərisində təxminən 2 ton kokain olan yarısualtı qayığı saxlamışdır. Hərbçilərin dediyinə görə, narkomafiyanın pulu hesabına inşa edilmiş qayıq Meksikaya istiqamət götürmüşdü. Bu barədə "Televisa" telekanalı xəbər verir.

Gəminin iki kolumbiyalı, meksikalı və ekvadorludan ibarət heyəti də saxlanmışdır.

Bu cür iri narkotik partiyasının daşınmasının arxasında hansı narkokartelin durması barədə hələ ki məlumat verilmir.

## İlk elektrik mühərrikli təyyarə havaya qalxdı

Dünyada ilk elektrik mühərrikli təyyarə Kanadada havaya qalxmışdır. Bu barədə BBC xəbər verir. Təyyarənin uçuş video və foto materiallarını "Harbour Air" aviaşirkəti yaymışdır. Şirkətin hidrotəyyarə istehsal edən mütəxəssislərinin səyi nəticəsində yanacaqsız uçan təyyarə reallığa çevrilmişdir. Layihənin elektrik mühərrikini "MagniX" şirkəti hazırlamışdır.

"De Havilland Canada DHC-2 Beaver" markalı 6 yerlik təyyarədə 750 at gücünə malik olan "Magni500" mühərriki quraşdırılmışdır. Təyyarəni "Harbour Air" aviaşirkətinin baş direktoru və sahibi Qreq Makduqal idarə etmişdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikası Müdafiə nazirinin müavini Kərim Vəliyevə qardaşı

**VƏLİ VƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əsəd Babayev, İsrafil Bəkirov, Fəxrəddin Şirəliyev, Gəray Ələkbərov və Rafiq Hüseynov ailələri ilə birlikdə Bakı Uşaq Teatrının direktoru İntiqam Soltana bacısı

**ARZU XANIMIN**

Naxçıvan MR-nın Ordubad rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8945
Sifariş 4130
Qiyməti 40 qəpik